RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 36 (10056) 25 fevral 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Dünyada analoqu olmayan regional əməkdaşlıq



### Azərbaycan-Türkiyə-Gürcüstan strateji tərəfdaşlığı hər üç ölkəyə siyasi və iqtisadi dividendlər verməkdə davam edir

Azərbaycan-Gürcüstan-Türkiyə arasında münasibətlərdən bəhs edərkən öncə diqqət siyasi dialoqun yüksək səviyyədə olduğuna yönəlir. Yəni siyasi dialoq ölkələrin rəhbərləri səviyyəsində, eləcə də digər instansiyalarda dəstəklənir. Üçtərəfli iqtisadi əməkdaşlıq da siyasi dialoqun yüksək səviyyəsinə uyğun qurulub. Bu gün Xəzər və Qara dəniz hövzələrini əhatə edən geniş coğrafiyada Azərbaycan, Türkiyə və Gürcüstan iqtisadi üçbucağının formalaşdığını hamı aydın görür.

Sadə sözlərlə desək, Azərbaycan yaxşı qonşudur və yaxın coğrafiyada yerləşən dövlətlərlə də xoş münasibətləri var. (Yalnız Ermənistan öz günahları ucbatından uzun illər bu münasibətlərdən kənarda qalıb). Azərbaycan region dövlətlərinin hər biri ilə sıx iqtisadi partnyorluq münasibətləri qurub. İkitərəfli və çoxtərəfli əsasda inkişaf edən bu münasibətlər qarşılıqlı maraqlara əsaslanır və bütün tərəflərə fayda gətirir. Bu baxımdan Azərbaycan, Gürcüstan və Türkiyə arasında formalaşmış iqtisadi əməkdaşlıq əlaqələri təqdirəlayiqdir.

Üç qonşu ölkə arasında iqtisadi əlaqələrdən söhbət gedəndə ilk növbədə qlobal enerji layihələri yada düşür. Təkcə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərini yada salmaq kifəyətdir. Başlanğıcını paytaxtımızın yaxınlığındakı Səngəçal terminalından götürən boru xətti Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə 1768 kilometr məsafə qət edərək mənzil başına çatır və bu üç ölkəni möhkəm polad kəmər kimi bir-birinə daha sıx bağlayır. 20 ildir tam sistem kimi fəaliyyət göstərən BTC bütün regiona xeyir-bərəkət gətirir.

Avropanın enerji xəritəsini dəyişdirən "Cənub qaz dəhlizi"nin üç seqmentinin ikisi bu regiondan keçir. Əvvəla xatırladaq ki, Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ildən Azərbaycan qazını qonşu ölkəyə çatdırır. Azərbaycanın və Gürcüstanın ərazisindən keçən bu kəmərə calanan əlavə xətlə qaz 2007-ci ildən Türkiyənin Ərzurum şəhərinədək nəql edilir. Azərbaycanı qaz ixrac edən ölkə kimi tanıtdıran da məhz bütövlükdə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri adlanan bu xətt olub.

"Cənub qaz dəhlizi"ni yaradan üç kəmərdən birincisi də genişləndirilmiş CQBK-dır. Daha sonra isə "Cənub qaz dəhlizi"nin ən böyük hissəsi - Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edən TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) gəlir. Azərbaycan qazını Avropaya çatdıran TAP (Trans-Adriatik Qaz Boru Kəməri) məhz TANAP-a bağlanır.

10

## İKİƏSRLİK CİNAYƏTLƏRİN ƏDALƏTLİ YEKUN CƏZASI



Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

Məhkəmənin hökmü ilə Ruben Vardanyan da layiq olduğu cəzasını aldı!

5

## Azərbaycan-Estoniya dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək

### Estoniya Respublikasının Prezidenti zati-aliləri cənab Alar Karisə

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan-Estoniya dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Estoniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

## Mədəniyyətimizin böyük hamisi

### Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin bərpasına böyük töhfələr verir

Qarabağda Heydər Əliyev Fondu tərəfindən ilk bərpaolunan abidələrdən biri Vaqifin məqbərəsidir. Muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimi 2021-ci il avqustun 29-da baş tutub. Cəmi bir neçə aya ərsəyə gələn muzey kompleksi avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günlərində qapılarını ziyarətçilərə açıb. Xatırladaq ki, 2021-ci ilin martından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. Bu layihələr əsasında isə fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənib və abidənin tarixi görkəmi bərpa edilib. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub.



6

## Rəqəmsallaşma zamanın tələbidir

Rəqəmsal tranformasiyada əsas məsələlərdən biri data mərkəzlərinin yaradılmasıdır. Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizdə bir neçə data mərkəzinin qurulması planlaşdırılır və bu infrastruktur süni intellekt sistemlərinin stabil fəaliyyəti üçün vacibdir. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycanın enerji və nəqliyyat infrastrukturunda topladığı təcrübə indi rəqəmsal infrastruktura transformasiya olunmalıdır. Enerji və nəqliyyat dəhlizləri ölkəmizi regional mərkəzə çevirdiyi kimi, fiber-optik dəhlizlər və data mərkəzləri də Azərbaycanı rəqəmsal qovşağa çevirə bilər.

Qeyd edək ki, süni intellekt və innovasiya sahəsində özəl sektorun dəstəklənməsi də ölkəmizin bu sahədə imkanlarını artırır. Bu isə yeni investisiyaların cəlb olunmasına və əlavə gəlir mənbələrinin yaranmasına imkan yaradır.

Vacib məsələlərdən biri də kadr hazırlığıdır. Texnologiya öz-özünə inkişaf etmir. Onu inkişaf etdirən və tətbiq edən insan kapitalıdır. Bu baxımdan Prezident İlham Əliyevin təsdiq etdiyi "2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nda ixtisaslı kadrların hazırlanması mühüm məsələlər sırasındadır.

8

## Brüssel Bakı ilə strateji tərəfdaşlıqda maraqlıdır

### Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa dair müzakirələri yekunlaşdırmaq istəyir



Azərbaycan-Avropa İttifaqı arasında münasibətlər beş əsas istiqamət üzrə inkişaf edir və Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq strateji formatlar çərçivəsində genişləndirilir. Yenilənmiş sazişin - enerji təhlükəsizliyi və qaz təchizatı, ticarət və investisiya mühiti, nəqliyyat dəhlizləri və regional bağlantılar, hüquqi və institusional əməkdaşlıq, regional sabitlik və təhlükəsizlik məsələlərini əhatə edəcəyi bildirilir.

4

## "Səfir Fergus Auldu baş verən bu təxribatı dayandırmaq üçün fəaliyyətə çağırırıq"

Qarabağ bölgəsi Azərbaycanın suveren ərazisidir və bu, Böyük Britaniya da daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə tanınır. Bu səbəbdən sorğuda "Dağlıq Qarabağ" termini hüquqi və tarixi baxımdan yanlışdır və ondan istifadə edilməsi qəbuledilməzdir. Bu, Azərbaycan dövlətinin ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş çirkin siyasi kampaniyadır. Bu cür yanaşma sorğunun obyektivlik və hüquqi etibarlılıq meyarlarına cavab verməyəcəyini indidən nümayiş etdirir.

Ermənistan və Azərbaycan arasında münaqişə başa çatıb, hər iki dövlət sülh prosesində böyük tərəqqi əldə edib. Sülh sazişinin mətni artıq hazırdır və ötən il avqustun 8-də Vaşinqtonda keçirilən Zirvə görüşü zamanı paraflanıb. Aydındır ki, imzalanacaq sülh sazişi iki dövlət arasında gündəlikdə olan məsələləri əhatə edir. İndiki şəraitdə belə bir sorğunun regiondan kənar aktorlar tərəfindən aparılması onun əsas niyyət və məqsədi haqqında böyük suallar doğurur. Bu təşəbbüsün məqsədi iki ölkə arasında normallaşma prosesini pozmaq və inamı sarsıtmaq, revanşizmi alovlandıraraq separatçı meyilləri canlandırmağa hesablanıb. Bu isə Azərbaycan və Ermənistan arasında normallaşma prosesini ilk gündən dəstəkləyən, hər iki ölkə ilə artıq strateji tərəfdaşlıq quran Britaniya hökumətinin marağında olmamalıdır.

7

## Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 21 fevral tarixli 942 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla bu Sərəncamın əlavəsində göstərilən əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusunun layihə-smeta sənədlərinin hazırlanması, qazılması və əhalinin içməli su ilə təmin olunması üçün müvafiq tədbirlər görsün.

2. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2026-cı il*

## Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində dövlət siyasətinin daha səmərəli və əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" publik hüquqi şəxs və "Azərbaycan Respublikası İnvestisiyaların və İxracın Təşviqi Agentliyi - AZPROMO" publik hüquqi şəxs əsasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

2. Müəyyən edilsin ki, Agentlik mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi, qeyri-neft (qaz) sektoru üzrə investisiyaların və ixracın təşviqi istiqamətində fəaliyyət göstərən, sahibkarlıq subyektlərinin maraqlarının qorunmasında iştirak edən, dövlət orqanlarının (qurumlarının) və sahibkarların bu sahədə xidmətlərini əlaqələndirən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan qurumdur.

3. Agentliyin işçilərinin say həddi cəmi 370 ştat vahidi, o cümlədən onun Aparatının işçilərinin say həddi 291 ştat vahidi, regional bölmələrinin işçilərinin say həddi 79 ştat vahidi müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

4.1.1. üç ay müddətində:

4.1.1.1. Agentliyin əsasnaməsinin və strukturunun layihəsi;

4.1.1.2. bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

4.1.2. doqquz ay müddətində:

4.1.2.1. mikro, kiçik və orta sahibkarlıq subyektlərinə, ixracatçılara və investorlara dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin mərhələli şəkildə özəl sektor subyektləri tərəfindən həyata keçirilməsi mexanizmləri;

4.1.2.2. qeyri-neft (qaz) sektoru üzrə investisiyaların və ixracın təşviqi mexanizmlərinin təkmilləşdirilməsi;

4.2. bu Fərmanın 1-ci hissəsində göstərilən publik hüquqi şəxslərin balansında olan dövlət əmlakının Agentliyin balansına verilməsini üç ay müddətində təmin etsin;

4.3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Agentliyin işçilərinin bu Fərmanın 1-ci hissəsində göstərilən publik hüquqi şəxslərin işçiləri hesabına komplektləşdirilməsinin təmin edilməsi ilə əlaqədar tədbirlər görsün;

4.4. Agentliyin fəaliyyətinin maliyyələşdirilməsinə dair məsələləri bir ay müddətində həll etsin;

4.5. Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli, habelə bu Fərmanın 4.1.2.2-ci abzasında nəzərdə tutulmuş işlərin həyata keçirilməsi ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsini, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Agentliyin əsasnaməsi və strukturu təsdiq edilənədək, bu Fərmanın 1-ci hissəsində göstərilən publik hüquqi şəxslər öz fəaliyyətlərini davam etdirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2026-cı il*

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 fevral tarixli Sərəncamına Əlavə***

## Naxçıvan Muxtar Respublikasında subartezian quyularının qazılması nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısı

| Sıra №-si | Yaşayış məntəqələrinin adları |
|---|---|
| 1. Babək rayonu | |
| 1.1. | Cəhri qəsəbəsi |
| 1.2. | Çeşməbasar kəndi |
| 1.3. | Didivar kəndi |
| 1.4. | Güznüt kəndi |
| 1.5. | Kültəpə kəndi |
| 1.6. | Qaraqala kəndi |
| 1.7. | Məzrə kəndi |
| 1.8. | Naxışnərgiz kəndi |
| 1.9. | Nəzərabad kəndi |
| 1.10. | Sirab kəndi |
| 1.11. | Yuxarı Uzunoba kəndi |
| 2. Culfa rayonu | |
| 2.1. | Culfa şəhəri |
| 2.2. | Bənəniyar kəndi |
| 2.3. | Xoşkeşin kəndi |
| 2.4. | Kırna kəndi |
| 2.5. | Saltaq kəndi |
| 2.6. | Teyvaz kəndi |
| 3. Kəngərli rayonu | |
| 3.1. | Qıvraq qəsəbəsi |
| 3.2. | Böyükdüz kəndi |

| Sıra №-si | Yaşayış məntəqələrinin adları |
|---|---|
| 3.3. | Çalxanqala kəndi |
| 3.4. | Xok kəndi |
| 3.5. | Təzəkənd kəndi |
| 3.6. | Yeni Kərki kəndi |
| 4. Ordubad rayonu | |
| 4.1. | Ağrı kəndi |
| 4.2. | Aşağı Əylis kəndi |
| 4.3. | Azadkənd kəndi |
| 4.4. | Dizə kəndi |
| 4.5. | Düylün kəndi |
| 4.6. | Xanağa kəndi |
| 4.7. | Yuxarı Əylis kəndi |
| 5. Şahbuz rayonu | |
| 5.1. | Badamlı qəsəbəsi |
| 5.2. | Ayrınc kəndi |
| 5.3. | Külüs kəndi |
| 5.4. | Mərəlik kəndi |
| 5.5. | Şada kəndi |
| 5.6. | Şahbuzkənd kəndi |
| 6. Şərur rayonu | |
| 6.1. | Qaraburc kəndi |
| 6.2. | Şəhriyar kəndi |

### Milli Məclisin iclasında

# Azərbaycan milli maraqlarını qətiyyətlə təmin edən güclü dövlətdir

Fevralın 24-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova iclasın əvvəlində bildirib ki, Birinci Qarabağ müharibəsinin gedişində Ermənistan silahlı qüvvələri xalqımıza qarşı bir sıra soyqırımı cinayətləri törədib.

Milli Məclisin Sədri qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törədilmiş soyqırımı aktı isə bütün insanlığa qarşı ən ağır cinayətlərdən biridir. 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, 487 nəfər şikəst edilib, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalıb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında əldə etdiyi tarixi qələbələr sayəsində dövlətimizin ərazi bütövlüyü bərpa olunmuş və xalqımıza qarşı etnik təmizləmələrə və soyqırımı cinayətlərinə son qoyulmuşdur. Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır", - deyə Sahibə Qafarova bildirib.

İclasda Xocalı şəhərində, digər yaşayış məntəqələrində erməni şovinizminin vəhşiliyinin qurbanı olmuş soydaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Deputatlar Asif Əsgərov, Bəhruz Məhərrəmov, Bəxtiyar Əliyev, Aydın Mirzəzadə, Razi Nurullayev, Elman Nəsirov, Ceyhun Məmmədov, Vüqar Bayramov, Sahib Alıyev və Aydın Hüseynov qeyd ediblər ki, həm Birinci, həm də İkinci Qarabağ müharibələri dövründə Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı müharibə cinayətləri və vandalizm aktları törədilib. Deputatlar vurğulayıblar ki, Xocalı faciəsi öz miqyasına, qəddarlığına və dinc əhaliyə qarşı yönəlmiş məqsədli soyqırımı siyasətinə görə bəşər tarixinin ən ağır cinayətlərindən biri kimi qiymətləndirilməlidir. Çıxışlarda faciənin beynəlxalq müstəvidə tanıdılması, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bu gün həyata keçirilən ardıcıl və prinsipial siyasətin əhəmiyyəti xüsusi qeyd olunub. Bildirilib ki, məhz Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində vaxtilə faciəyə hüquqi-siyasi qiymət verilib və beynəlxalq səviyyədə tanıdılması istiqamətində sistemli fəaliyyətə başlanılıb. Ümummilli Liderin siyasətini uğurla davam etdirən cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatlarında qazanılan möhtəşəm qələbələr nəticəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı. Bununla da işğala son qoyularaq ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olundu.

Bildirilib ki, Xocalı və digər faciələr heç vaxt unudulmayacaq. Azad edilmiş torpaqlarda ucaldılan memorial komplekslər, bərpaolunan məscidlər və tarixi abidələr xalqımızın əyilməz ruhunun simvoludur. Bu, təkcə keçmişə ehtiram deyil - gələcəyə mesajdır: Azərbaycan bir daha belə faciələrin təkrarlanmasına imkan verməyəcək. Xocalı qatilləri və müharibə cinayətlərini törədən şəxslər ədalət mühakiməsinə cəlb olunub, Azərbaycan məhkəmələri tərəfindən layiqli cəzalarını alıblar.

Bu gün işğaldan azad olunmuş rayonlara vətəndaşlarımızın mərhələli qayıdışı uğurla təmin edilir, geniş infrastruktur layihələri reallaşdırılır, şəhər və kəndlərin bərpası, sosial və yaşayış sahələrinin yaradılması istiqamətində sistemli tədbirlər aparılır. Böyük qayıdış modelini milli birliyi, sabitliyi və dövlətçiliyi gücləndirən strateji layihə kimi xarakterizə edən deputatlar layihəni tarixi ədalətin təntənəsinin nümunəsi kimi qiymətləndiriblər.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan milli maraqları qətiyyətlə müdafiə edən, müstəqil siyasət yürüdən və beynəlxalq müstəvidə mövqeləri möhkəmlənən güclü dövlətdir. Əldə olunan nailiyyətlər xalqın birliyi, siyasi sabitlik və uzaqgörən dövlət siyasətinin məntiqi nəticəsidir.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin birinci məsələsi "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi ilə bağlıdır.






Məsələ barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai məlumat verib. O qeyd edib ki, beş ölkə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbərlərinin seçilməsi təklif olunub. Belə ki, Keniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupuna Namazov Ramid Zakir oğlunun, Qambiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupuna Qurbanov Eyvaz Daşdəmir oğlunun, Laos ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupuna Paşayeva Gülşən Məmmədəli qızının, Maldiv ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupuna Allahverənov Azər Kərim oğlunun, Nepal ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupuna Qafarov Vasif Vaqif oğlunun namizədliyi irəli sürülüb.

Deputat Qüdrət Həsənquliyevin fikirləri dinlənildikdən sonra Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Komitə sədri bildirib ki, layihədə İcbari Tibbi Sığortada müştərək maliyyələşmənin tətbiqinin daha bir il təxirə salınması təklif olunub. Qüvvədə olan qanunvericiliyə əsasən, maliyyələşmə məbləği 2026-cı il yanvarın 1-dən ödənilməyə başlanmalı idi. Qanunda nəzərdə tutulan dəyişiklikdə bu tarixin 2027-ci il yanvarın 1-nə qədər uzadılması nəzərdə tutulur.

Deputat Müşfiq Məmmədlinin məsələ haqqında fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq qəbul edilib.

Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, layihənin birinci oxunuşu zamanı dəyişikliklər barədə ətraflı məlumat verilib. Layihədə Azərbaycanın qoşulduğu Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyasının tələblərinə uyğun olaraq bir sıra ifadələr müasir terminlərlə əvəz edilir. Həmçinin sənəddə cinayət mühakimə icraatının elektron qaydada aparılması məsələləri tənzimlənir.

Sənədin müzakirəsində deputatlar Qüdrət Həsənquliyev və Erkin Qədirli çıxış edərək məsələ ilə bağlı fikirlərini, qeydlərini bildiriblər. Komitə sədri Əli Hüseynli qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, təklif olunan dəyişikliyə əsasən məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə, cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçirilir. Bu halda, cərimə ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilir.

Deputat məsələnin birinci oxunuşda müzakirəsindən sonra əlavə heç bir təklifin daxil olmadığını deyib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuş zamanı sənəd barədə ətraflı məlumat verildiyini, mətndə heç bir dəyişikliyin edilmədiyini söyləyib və məsələnin səsə qoyulmasını xahiş edib.

Layihədə dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və aerodromların inşasının torpağın alınmasına əsas verən dövlət ehtiyacları siyahısına daxil edilməsi təklif olunur. Bununla yanaşı, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunun 3.1.5-ci maddəsindən irəli gələrək, uyğunlaşdırma çərçivəsində Mülki Məcəllənin 157.9-cu maddəsinə "dəniz limanının ərazisinin artırılması" sözləri əlavə edilir.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev təqdim edilən layihəyə rəhbərlik etdiyi komitədə baxıldığını və müsbət rəy verildiyini açıqlayıb.

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Naqif Həmzəyev, Aydın Hüseynov çıxış edərək bəzi qeyd və təkliflərini söyləyiblər. Deputat Nurlan Həsənov çıxışlarda səslənən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, layihədə "sosial sığorta nömrəsi" sözlərinin "fərdi identifikasiya nömrəsi (FİN)" sözləri ilə əvəz edilməsi nəzərdə tutulur. Bu dəyişiklik sosial sığorta sistemində məlumatların idarə olunmasında vahidliyi və uyğunluğu təmin edəcək, qurumlar arasında məlumat mübadiləsini asanlaşdıraraq e-sistemlərin inteqrasiyasını sürətləndirəcək. Qeyd edilib ki, sənədlə bağlı komitəyə əlavə təkliflər daxil olmayıb, komitənin rəyi müsbətdir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda ikinci oxunuşda "Dövlət qulluğu haqqında" qanunda və digər qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə" və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya qanununda dəyişiklik edilməsi barədə" Konstitusiya qanununun layihələri müzakirə olunub.

Müzakirələrdən sonra hər iki qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (birinci oxunuş) məlumatı diqqətə çatdırıb. Komitə sədri bildirib ki, qanun layihəsi Azərbaycan Prezidentinin 2024-cü il 23 dekabr tarixli 420 nömrəli sərəncamına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanıb. Sənəddə yerin təkindən istifadə sahəsində mövcud problemlərin analizləri nəzərə alınmaqla bir sıra məsələlər, o cümlədən yerin təkindən istifadəyə icazə və tələblərin sadələşdirilməsi, istismardan sonrakı mərhələdə rekultivasiya işlərinin aparılması ilə bağlı və digər təkliflər irəli sürülür. Təkliflərin məqsədi yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmə prosedurlarının təkmilləşdirilməsi, təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması, ekoloji təhlükəsizliyin gücləndirilməsi və dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasının hüquqi əsaslarının dəqiqləşdirilməsidir.

Nəzərə çatdırılıb ki, layihədə su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin (qum, qum-çınqıl, gil), habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxurların istifadəsinin yerin təkindən istifadənin növləri sırasına daxil edilməsi təklif olunur. Respublikamızda həyata keçirilən infrastruktur layihələri, o cümlədən tunellərin və metro stansiyalarının tikintisi zamanı çıxarılan süxur kütləsinin iqtisadi dövriyyəyə cəlb olunması mineral xammal ehtiyatlarından səmərəli istifadəyə və dayanıqlı resurs idarəçiliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verə bilər.

Sənəddə, habelə yer təkindən istifadə sahəsində bir sıra qaydaların təsdiq edilməsinin hüquqi əsasının yaradılması nəzərdə tutulur. Bura yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi qaydası, qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar aid edilir.

Bununla yanaşı, qanuna yeni "Yerin təki sahələrinin rekultivasiyası" adlı 13-1-ci maddə əlavə olunur. Yeni maddəyə əsasən, yerin təki istifadəçiləri işlərin aparıldığı ərazidə torpağın münbitliyinin və digər faydalı xassələrinin qorunması, bərpa edilməsi və yüksəldilməsi, o cümlədən ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması məqsədilə həmin torpaqların rekultivasiyasını rekultivasiya planı əsasında təmin etməlidirlər. Həmçinin yerin təkindən istifadə sahəsinin xüsusiyyətləri, süxurların kimyəvi tərkibi, çirklənmənin növündən asılı olaraq rekultivasiyanın üsulları (mexaniki, bioloji, kimyəvi, termik) və istiqamətləri, o cümlədən müddəti müəyyənləşdirilir, istismarın dərinliyi, faydalı qazıntının növü və istismar ediləcək həcmə uyğun olaraq rekultivasiya planı tərtib edilir.

Təklif olunan dəyişikliklər yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, təbii ehtiyatlardan istifadə olunmasının səmərəliliyinin yüksəldilməsinə, ekoloji təhlükəsizliyə, ekoloji balansın qorunmasına, dağmədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasına və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılmasına xidmət edəcək.

Müzakirələr zamanı çıxış edən parlamentin komitə sədri Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Asif Əsgərov məsələ barədə bəzi qeydlərini səsləndiriblər.

Komitə sədri Sadiq Qurbanov deputatların suallarını cavablandırdıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

*Ardı 3-cü səh.*

# Milli Məclisin Sədri Sahibə Qafarova TBMM Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə üçtərəfli görüşün əhəmiyyəti vurğulanaraq, Azərbaycan, Gürcüstan və Türkiyə arasında münasibətlərin regionda sülhə, sabitliyə, əməkdaşlığa və iqtisadi inkişafa töhfə verdiyi bildirilib. Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, bu gün həm regionumuzda, həm də qlobal səviyyədə baş verən proseslər, mövcud olan çağırışlar parlamentlərimizin xarici əlaqələr komitələrinin birgə işinin davam etdirilməsini labüd edir. Vurğulanıb ki, üçtərəfli parlament əməkdaşlığı çərçivəsində reallaşdırılan bu mühüm tədbir ölkələrimiz arasında parlamentlərarası münasibətlərin səviyyəsinin daha da artırılmasına xidmət edir.

Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay Türkiyə Respublikası Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşun salamlarını Milli Məclisin Sədrinə çatdırıb. Sahibə Qafarova onun da salamlarını TBMM sədrinə çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında münasibətlərə dair fikirlər səsləndirilərək, bildirilib ki, ölkələrimiz arasında əlaqələr Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına uyğun şəkildə inkişaf edir. Spiker Sahibə Qafarova deyib ki, Azərbaycanla Türkiyə həm sevincli, həm də kədərli günlərdə bir yerdə olduqlarını bütün dünyaya nümayiş etdirirlər. Dövlət başçılarımızın qardaşlıq əlaqələri bu münasibətlərin çoxşaxəli inkişafındakı ən mühüm amildir. Məhz onlar ikitərəfli əməkdaşlığın gündəliyini müəyyən edir və bu əməkdaşlığın inkişaf istiqamətləri üzrə müvafiq tapşırıqları verirlər.

Fuad Oktay qeyd edib ki, daha geniş regionda mövcud olan gərginliklər fonunda qardaş ölkələrimiz arasında əməkdaşlıq sabitlik amili kimi çıxış edir. Ölkələrimiz arasında iqtisadi əlaqələrin mühüm əhəmiyyəti qeyd olunaraq, bu sahədə münasibətlərin daha da dərinləşməsində parlamentlərin də rolu diqqətə çatdırılıb. Söhbət zamanı Azərbaycan və Türkiyənin birgə həyata keçirdikləri mühüm layihələrdən bəhs edilib.

Spiker Sahibə Qafarova qeyd edib ki, dövlət başçılarının ikitərəfli əlaqələrin inkişafına dair iradəsini parlamentlər səviyyəsində də tam şəkildə əks etdirmək üçün bütün imkanlardan istifadə olunur. Parlament üzvləri il ərzində çoxsaylı səfərlər, görüşlər keçirirlər, əlaqələrin yüksək səviyyədə inkişafı üçün bütün addımlar atılır. O cümlədən, beynəlxalq parlament təşkilatlarında yüksək səviyyədə qarşılıqlı dəstək və birgə fəaliyyət mövcuddur.

Görüşdə həmçinin ötən ilin avqustunda Vaşinqton Zirvə görüşündən sonra regionda yaranmış vəziyyət, Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra əməkdaşlıq üçün yaranacaq yeni imkanlar o cümlədən, qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Xalq şairi Nəriman Həsənzadəyə "Heydər Əliyev" ordeni təqdim edilib







Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev dövlətimizin başçısının tapşırığına uyğun olaraq, mədəniyyətimizin inkişafında müstəsna xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilmiş Xalq şairi Nəriman Həsənzadəni evində ziyarət edib və ali mükafatı ona təqdim edib.

AZƏRTAC xəbər verir ki, Samir Nuriyev 95 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın salamlarını və səmimi təbriklərini Nəriman Həsənzadəyə çatdırıb.

Görüş zamanı Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatına verdiyi töhfələr, milli-mənəvi dəyərlərin təbliği istiqamətində uzun illər ərzində göstərdiyi xidmətlər xüsusi vurğulanıb. Bildirilib ki, onun çoxşaxəli yaradıcılığı və ictimai fəaliyyəti Azərbaycan ədəbiyyatının, mədəniyyətinin zənginləşməsinə mühüm töhfə verib, gənc nəsillərin vətənpərvərlik ruhunda formalaşmasında əhəmiyyətli rol oynayıb.

Xalq şairi göstərilən yüksək diqqətə və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlığını ifadə edib, milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanmasına, mədəniyyət, incəsənət və digər sahələrin inkişafında xidməti olan şəxslərə dövlət dəstəyini yüksək qiymətləndirib.

# Azərbaycan milli maraqlarını qətiyyətlə təmin edən güclü dövlətdir

***Əvvəli 2-ci səh.***

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi sərnişinlərin və yüklərin daşınmasında təhlükəsizlik səviyyəsinin yüksəlməsinə, keyfiyyətli xidmətin göstərilməsinə xidmət edir, müxtəlif sığorta hadisələri zamanı sığortaolunanların, xüsusilə zərərçəkən sərnişinlərin qorunmasına və onların həyatına və sağlamlığına zərər dəyməsinə görə sığorta təminatı yaradır.

Diqqətə çatdırılıb ki, avtomobil nəqliyyatı ilə daşımanın bir növü olan ölkədaxili sifarişli daşımalar sahəsində, xüsusilə bu fəaliyyətə icazə verilməsi sahəsində təkmilləşdirilmənin aparılmasına zərurət yaranıb. Hazırda ölkədaxili sifarişli daşımalara icazə buraxılış vəsiqəsinin verilməsi ilə həyata keçirilir. Təklif olunan dəyişiklik buraxılış vəsiqəsinin əldə olunması üçün əlavə tələblərin müəyyən edilməsini nəzərdə tutur. Bu tələblər sürücünün peşəkarlığının, sürücülük vəsiqəsinin kateqoriyasının bu fəaliyyətlə məşğul olmağa uyğunluğunun, onun sağlamlıq vəziyyətinin və nəqliyyat vasitəsinin texniki vəziyyətinin qiymətləndirilməsinə xidmət edir.

Eyni zamanda qeyd olunub ki, qanun layihəsi ilə ölkədaxili sifarişli daşımaların növü olan qeyri-müntəzəm sərnişin daşımalarına münasibətdə, eləcə də müntəzəm beynəlxalq və şəhərlərarası (rayonlararası) sərnişin daşımalarına münasibətdə icazənin alınması üçün avtonəqliyyat vasitəsilə daşınan sərnişinlərin fərdi qəza sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın olmasını təsdiq edən sənədlərin mövcudluğu da tələb olunacaq. Həmin tələblər bu qanunda avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını yerinə yetirən daşıyıcının vəzifəsi kimi müəyyən olunur, həmçinin həmin sığortaların icbariliyi "İcbari sığortalar haqqında" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlarda təsbit edilir.

Layihədə təklif olunan digər dəyişiklik qeyri-müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin texniki göstəricilərinin, daxili və xarici tərtibatının müvafiq tələblərə uyğunluğu ilə bağlıdır. Dəyişikliklər çərçivəsində, həmçinin daşıyıcı anlayışı da dəqiqləşdirilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisdə Türkiyə parlamentariləri ilə görüş

Fevralın 24-də Milli Məclisin komitə sədri Əhliman Əmiraslanovun rəhbərlik etdiyi Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri, Azərbaycan, Türkiyə və Gürcüstan Parlamentlərinin Xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) xarici əlaqələr komitəsinin sədri Fuad Oktayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Əhliman Əmiraslanov bildirib ki, ölkələrimiz arasında münasibətlər bütün sahələr üzrə yüksələn xətlə inkişaf edir. O vurğulayıb ki, bu münasibətlərin əsasını hər iki ölkənin dövlət başçıları və xalqları arasında mövcud olan dostluq və qardaşlıq əlaqələri təşkil edir.

Parlamentlərarası əməkdaşlığın inkişafından danışan komitə sədri qeyd edib ki, parlament rəhbərlərinin mütəmadi görüşləri, eyni profilli komitələr arasında keçirilən iclaslar, eləcə də dostluq qruplarının fəaliyyəti bu əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verir. Bildirilib ki, digər sahəvi komitələrlə yanaşı, səhiyyə komitələri arasında da sıx əməkdaşlıq mövcuddur. Bu baxımdan TÜRKPA çərçivəsində də bu təmasların mütəmadi xarakter alması çox əhəmiyyətlidir.

Öz növbəsində qonaq, TBMM-in xarici əlaqələr komitəsinin sədri Fuad Oktay göstərilən səmimi münasibətə görə təşəkkürünü bildirib.

Komitə sədri qeyd edib ki, hazırda ən müxtəlif səviyyələrdə, o cümlədən parlamentlər arasında münasibətlər dinamik şəkildə inkişaf edir. Enerji təhlükəsizliyi sahəsində həyata keçirilən layihələr bu əməkdaşlığın mühüm istiqamətlərindən biridir. O, iqtisadiyyat və enerji transformasiyası sahələrində əldə olunan nailiyyətlərdən, eləcə də gələcəkdə bu istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərindən bəhs edib.

Görüş zamanı üçtərəfli iclasın gündəliyinə daxil edilən məsələlərin strateji əhəmiyyəti, onların mövcud əməkdaşlıq mexanizmlərinin gücləndirilməsinə töhfəsi, eləcə də bu sahədə gələcək inkişaf perspektivlərinə mümkün təsiri müzakirə olunub. Qeyd edilib ki, bu məsələlərin həyata keçirilməsi tərəflər arasında əlaqələrin daha da genişlənməsinə və qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılmasına xidmət edəcək.

Tədbirdə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Anar İsgəndərov, Eldar Quliyev, Eldar İbrahimov, Rəşad Mahmudov, Fatma Yıldırım, Tənzilə Rüstəmxanlı, Ağalar Vəliyev, Məlahət İbrahimqızı və Türkiyə Respublikası Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin üzvləri iştirak ediblər.

***"Azərbaycan"***

# Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclası keçirilib

Fevralın 24-də Milli Məclisdə Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri açan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iclas iştirakçılarını Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayıb.

Səməd Seyidov Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın perspektivləri, regionda sülh və sabitliyin əhəmiyyəti, bərpaolunan enerji sahələrində görülən işlər, bu sahədə parlamentlərin rolu, parlamentlərarası əlaqələrin inkişafı, ölkələrimiz üçün ortaq maraq kəsb edən məsələlərdə qanunvericiliyin uyğunlaşdırılması, Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri, COP31-in Türkiyədə keçirilməsinin əhəmiyyəti, Azərbaycanın beynəlxalq arenada artan nüfuzu, ABŞ-lə münasibətlərin inkişafı, Azərbaycan və Gürcüstanın müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığı, regionda "yaşıl enerji", nəqliyyat və kommunikasiya sahələrinin gələcəyi və digər məsələlər barədə fikirlərini bölüşüb.

Milli Məclisin komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan öz qonşuları ilə münasibətlərə böyük önəm verir və qonşu ölkələrdə sabitliyin tərəfdarıdır. O, bu görüşün ölkələrimiz arasında üçtərəfli əməkdaşlığın, parlament diplomatiyasının daha da güclənməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Çıxış edən Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay bu cür tədbirlərin parlament diplomatiyasının inkişafı və regional həllərin tapılması baxımından mühüm əhəmiyyətini qeyd edib. O, Cənubi Qafqazda sülh və sabitliyin qorunmasının Türkiyə üçün prioritet olduğunu və ölkəsinin Azərbaycanla Ermənistan arasında normallaşma prosesini güclü şəkildə dəstəklədiyini diqqətə çatdırıb. Türkiyə parlamentinin komitə sədri parlament diplomatiyasının imkanları, TRIPP marşrutunun əhəmiyyəti, regionda həyata keçirilən layihələr, dünyada mövcud geopolitik vəziyyət və digər məsələlər barədə danışıb. O, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin bütün regionun və qonşu ölkələrin inkişafına öz töhfələrini verəcəyinə inamını bildirib. Komitə sədri dünyada gedən geosiyasi tranformasiyaların və qlobal qeyri-müəyyənliklərin enerji və nəqliyyat sahələrində diversifikasiyanın vacibliyini bir daha vurğuladığını diqqətə çatdırıb.

Sonra çıxış edən Gürcüstan Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Şamxaradze bu formatda iclasın keçirilməsinin əhəmiyyətindən danışıb və Gürcüstanın bu formata böyük önəm verdiyini qeyd edib. O, parlament diplomatiyasının bu üç ölkə arasında münasibətlərin inkişafındakı rolunu diqqətə çatdırıb. Komitə sədri dünyadakı münaqişələr, geosiyasi vəziyyət barədə fikirlərini bölüşüb və Gürcüstanın münaqişələrin sülh yolu ilə həllinə sadiq qaldığını qeyd edib. Nikoloz Şamxaradze sülhün iqtisadi inkişaf üçün mühüm amillərdən biri olduğunu və Gürcüstan iqtisadiyyatının ötən il inkişafına görə dünyada ikinci yerdə olduğunu diqqətə çatdırıb. Komitə sədri Gürcüstanın Türkiyə və Azərbaycanla iqtisadiyyat və turizm sahəsində əməkdaşlığı barədə danışıb, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələrinin regional əməkdaşlıqda rolu və ölkələrimiz arasında iqtisadi əməkdaşlığın perspektivləri barədə fikirlərini açıqlayıb.

İclasda çıxış edən Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Arzu Nağıyev bildirib ki, Türkiyə və Gürcüstan parlamentləri ilə birgə keçirilən bu iclas regionumuzun gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir və üç ölkə arasında strateji tərəfdaşlığın parlament ölçüsündə daha da dərinləşdirilməsi baxımından xüsusi platformadır. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, sərhəd təhlükəsizliyi, hibrid təhdidlər və informasiya təhlükəsizliyi kimi məsələlər üç ölkənin ortaq gündəliyində xüsusi yer tutur. Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlıq artıq uzun illərdir ki, təkcə siyasi deyil, həm də iqtisadi və təhlükəsizlik sahələrində strateji xarakter daşıyır.

Komitə sədri bildirib ki, bu kontekstdə parlament diplomatiyası xüsusi əhəmiyyət kəsb edir. Parlament dostluq qrupları dövlətlərarası münasibətlərin yumşaq güc elementlərindən biridir. Bu platformalar vasitəsilə qanunvericilik təcrübəsi paylaşılır, regional layihələrin hüquqi bazası gücləndirilir, humanitar və mədəni əlaqələr təşviq edilir, ictimai diplomatiya inkişaf etdirilir.

Sonra çıxış edən hər üç ölkənin deputatları Mehmet Güzelmansur, İrakli Şatakişvili, Nigar Arpadarai, İsmail Özdemir, Nigar Məmmədova, Metin Ergün, Zaur Şükürov, Fariz İsmayılzadə, Mustafa Canbey, Sevinc Fətəliyeva, Gülşən Paşayeva, Pərvanə Vəliyeva, Rizvan Nəbiyev parlamentlər arasında bu cür üçtərəfli görüşlərin əhəmiyyətindən danışıblar. Deputatlar COP31-in Türkiyədə keçirilməsi, texnologiyaların və süni zəkanın inkişafı, ətraf mühitin qorunması, ölkələr arasında qanunvericiliklərin uyğunlaşdırılması, saxta informasiyaların qarşısının alınması, kibertəhlükəsizliyin təmin edilməsi və digər sahələrdə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüblər.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Tural Gəncəliyev, Nəsib Məhəməliyev, Qaya Məmmədov, Sevil Mikayılova, Elçin Mirzəbəyli, Asim Mollazadə, Elman Nəsirov, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin üzvləri Fəxri xiyabanı və Zəfər parkını ziyarət ediblər






Türkiyə və Gürcüstan parlament nümayəndə heyətləri Azərbaycan, Türkiyə və Gürcüstan Parlamentlərinin Xarici əlaqələr komitələrinin onuncu üçtərəfli iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdədirlər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, fevralın 24-də Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuad Oktayın və Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Şamxaradzenin başçılıq etdiyi nümayəndə heyətləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər, məzarı önünə tər çiçəklər düzüblər.

Səfər çərçivəsində nümayəndə heyətləri Bakıda Zəfər parkını ziyarət edərək Zəfər abidəsinin önünə gül dəstələri qoyublar. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətlərini Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycan və Gürcüstan arasında parlamentlərarası əlaqələr inkişaf edir

Fevralın 24-də Milli Məclisin Gürcüstan ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri ilə Azərbaycan, Türkiyə və Gürcüstan Parlamentlərinin Xarici əlaqələr komitələrinin onuncu üçtərəfli iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Gürcüstan Parlamentinin nümayəndə heyəti arasında görüş keçirilib.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin komitə sədri, Gürcüstan ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Arzu Nağıyev qanunvericilik orqanlarında fəaliyyət göstərən dostluq qruplarının ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynadığını söyləyib. Qeyd edilib ki, deputatlarımız arasında aparılan müzakirələr, qarşılıqlı səfərlər və birgə tədbirlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına töhfə verir. Parlament diplomatiyasının inkişafı ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinə və bütövlükdə Cənubi Qafqazda sabitliyə xidmət edir. Komitə sədri Bakıda keçiriləcək üçtərəfli iclasın tərəfləri maraqlandıran məsələləri müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb.

Gürcüstan Parlamentinin Xarici əlaqələr komitəsinin sədri, nümayəndə heyətinin rəhbəri Nikoloz Şamxaradze ölkəmizdə səfərdə olmaqdan məmnunluq duyduqlarını bildirib. O, dövlətlərimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, qlobal layihələrin icrasında da ölkələrimiz arasında əməkdaşlığın uğurla davam etdiyini deyib. Görüşdə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri, komitə sədrləri Musa Quliyev və Azər Əmiraslanov, deputat Gülşən Paşayeva, eləcə də Gürcüstan Parlamentinin Azərbaycanla İşçi qrupunun rəhbəri İrakli Kadaqişvili və Gürcüstan Parlamentinin xarici əlaqələr komitəsinin sədr müavini İrakli Şatakişvili çıxış edərək ölkələrimiz arasında inkişaf edən əlaqələrin əhəmiyyətindən, yüksəksəviyyəli diplomatik münasibətlərdən və gələcəkdə strateji münasibətlərin inkişafı perspektivlərindən söz açıblar.

Tədbirdə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Göydəniz Qəhrəmanov, Pərvin Kərimzadə, Azər Kərimli və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Brüssel Bakı ilə strateji tərəfdaşlıqda maraqlıdır

## Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa dair müzakirələri yekunlaşdırmaq istəyir

Azərbaycan və Avropa İttifaqı (Aİ) arasındakı əlaqələr ötən illər ərzində ənənəvi ticarət çərçivəsini aşaraq, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu gün Bakı və Brüssel arasındakı dialoq Avrasiya qitəsini birləşdirən nəqliyyat qovşaqlarını, gələcəyin "yaşıl enerji" keçidini və Cənubi Qafqazda sabitliyin yeni arxitekturasını əhatə edir. Azərbaycan zəngin resursları və əlverişli coğrafi mövqeyi ilə Avropanın enerji və logistika xəritəsini yenidən cızır.

Avropa ölkələri isə Azərbaycan üçün ən böyük ticarət tərəfdaşı olmaqla yanaşı, iqtisadiyyatın rəqəmsallaşması və texnoloji modernləşmə yolunda əsas mənbə rolunu oynayır. Lakin indiki çoxşaxəli əməkdaşlıq 1996-cı ilin reallıqlarını əks etdirən, müasir dövrün tələblərinə cavab verməyən köhnə hüquqi çərçivəyə sığışmır. O vaxtdan bəri dünya köklü dəyişikliyə məruz qalıb və geosiyasi tarazlıqlar yenilənib. Nəticədə tərəflərin bir-birindən gözləntiləri daha da böyüyüb. Bu mənada Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononun son açıqlamasını Aİ-nin Bakı ilə münasibətləri daha da inkişaf etdirmək təşəbbüsü kimi dəyərləndirmək olar. Aİ-nin xüsusi nümayəndəsi vurğulayıb ki, Azərbaycanla yenilənmiş saziş üzrə işi yekunlaşdırmağın vaxtı çatıb: "Brüsselin Aİ və Azərbaycan arasında yenilənmiş əməkdaşlıq sazişi - artıq bir neçə ildir müzakirə olunan sənəd üzrə irəliləyişə hazır və istəkli olduğunu bir daha vurğulamaq istərdim. Hesab edirik ki, bu məsələ üzrə birgə işi yekunlaşdırmağın vaxtı çatıb və ümid edirik ki, danışıqları tezliklə bərpa edə biləcəyik".

Qrono cari ilin 15-16 yanvar tarixlərində Azərbaycana səfərini və rəsmilərlə yüksəksəviyyəli görüşlərini xatırladaraq, bu təmasların əməkdaşlığın bütün istiqamətləri üzrə gələcək addımları müəyyənləşdirməyə imkan verdiyini vurğulayıb. Onun səsləndirdiyi fikirlər Aİ-nin Azərbaycanla əməkdaşlıqda strateji mərhələyə keçməyə hazır olduğunun göstəricisidir. Brüssel Azərbaycanı yalnız enerji tədarükçüsü yox, eyni zamanda iqtisadi və siyasi taleyini bölüşdüyü strateji tərəfdaş kimi rəsmiləşdirmək niyyətindədir.

2017-ci ildən müzakirə olunan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" sənədinin böyük hissəsi, təxminən 90-95 faizi artıq razılaşdırılıb. Qalan kiçik hissə isə, əsasən, ticarət tarifləri və bəzi texniki hüquqi prosedurlarla bağlıdır. Qrononun bəyanatları göstərir ki, Brüssel artıq texniki detalların strateji hədəfləri ləngitməsinə yol vermək istəmir. O səbəbdən, bürokratik və texniki maneələri kənara qoyaraq, mühüm sənədin ən tez zamanda imzalanmasına nail olmağa çalışır.

Azərbaycan-Avropa İttifaqı arasında münasibətlər beş əsas istiqamət üzrə inkişaf edir və Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq strateji formatlar çərçivəsində genişləndirilir. Yenilənmiş sazişin - enerji təhlükəsizliyi və qaz təchizatı, ticarət və investisiya mühiti, nəqliyyat dəhlizləri və regional bağlantılar, hüquqi və institusional əməkdaşlıq, regional sabitlik və təhlükəsizlik məsələlərini əhatə edəcəyi bildirilir. Hazırda Azərbaycan Avropa İttifaqına üzv olan 10 ölkə ilə strateji tərəfdaşlıq münasibətləri qurub ki, bu da qarşılıqlı etimada əsaslanan siyasi dialoqun göstəricisidir. Ümumiyyətlə, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Xüsusilə enerji sahəsində əməkdaşlıq son illərdə daha da genişlənib.

Yenilənmiş saziş imzalandıqdan sonra tərəflər arasında iqtisadi dividendlərlə paralel yeni etimad dövrü də başlayacaq. Bu sənəd Azərbaycanın qeyri-neft sektorunun Avropa bazarlarına birbaşa çıxışına yaşıl işıq yandıracaq. Yerli məhsulların Avropa standartlarına uyğunlaşdırılması, kənd təsərrüfatı və sənaye mallarının maneəsiz ixracı üçün hüquqi zəmanəti təmin edəcək. Orta dəhlizin beynəlxalq statusunu möhkəmləndirəcək və ən əsası, ölkəmizin regiondakı liderlik mövqeyini beynəlxalq hüquqi müstəvidə daha da yüksəldəcək. Bakı qitələrarası yükdaşımaların əsas rəqəmsal və logistik habına çevriləcək. Saziş imzalandıqdan sonra Azərbaycan Aİ ilə strateji tərəfdaşlıq sazişi olan azsaylı ölkələrdən biri olacaq. Bu, ölkəmizin iqtisadi-diplomatik çəkisini daha da artıracaq.

Əvvəlki dövrlərdə daha çox təbii qaz gündəmdə idisə, yeni mərhələdə Xəzər dənizindən Avropaya çəkiləcək "yaşıl enerji" kabeli və bərpaolunan enerji resurslarının ixracı ön plana çıxır. Azərbaycan Çindən Avropaya gedən ən qısa və təhlükəsiz yolun mərkəzindədir. Yeni saziş bu dəhlizin rəqəmsallaşdırılması və gömrük prosedurlarının sadələşdirilməsi üçün vahid platforma rolunu oynayacaq. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və dəmir yolları şəbəkəsi Aİ-nin nəqliyyat standartlarına inteqrasiya olunacaq.

2025-ci il Azərbaycan-Avropa İttifaqı əlaqələri çərçivəsində yüksəksəviyyəli qarşılıqlı səfərlər və intensiv siyasi məsləhətləşmələr dövrü kimi yadda qalıb. Azərbaycan Avropa Siyasi Birliyinin 6-cı və 7-ci Zirvə toplantılarında Prezident İlham Əliyevin iştirakı ilə fəal və prinsipial mövqe nümayiş etdirib. Bu platforma çərçivəsində ölkəmiz Avropanın təhlükəsizliyi, enerji əməkdaşlığı və regional sabitlik məsələləri üzrə mövqeyini ardıcıl şəkildə ifadə edib. Hətta Avropa Siyasi Birliyinin 12-ci Zirvə toplantısının 2028-ci ildə Azərbaycanda keçirilməsi barədə razılıq əldə olunub. Bu, ölkəmizin Avropa məkanında artan siyasi nüfuzunun və etibarlı tərəfdaş statusunun göstəricisidir. Belə mötəbər tədbirə evsahibliyi etmək hüququnun Bakıya verilməsi ölkəmizin Avropa məkanında artan siyasi nüfuzunun, beynəlxalq təhlükəsizlik arxitekturasında oynadığı stabilləşdirici rolun və ən əsası etibarlı tərəfdaş statusunun qlobal miqyasda təsdiqidir.

Münasibətlərin yüksələn xətti 2026-cı ilin fevralında keçirilən Münxen Təhlükəsizlik Konfransı çərçivəsində də özünü büruzə verdi. Fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə keçirdiyi görüş əməkdaşlığın gələcək konturlarını müəyyən etdi. Görüş zamanı Kaya Kallas Aİ-nin Azərbaycanla münasibətləri keyfiyyətcə yeni və daha dərin bir müstəviyə daşımaqda maraqlı olduğunu xüsusi vurğuladı.

Beləliklə, istər Avropa Siyasi Birliyi çərçivəsindəki çoxtərəfli format, istərsə də yüksəksəviyyəli ikitərəfli təmaslar göstərir ki, Azərbaycan-Aİ münasibətləri artıq deklarativ bəyanatlardan uzaqlaşaraq real nəticələrə söykənən tərəfdaşlıq mərhələsinə qədəm qoyub. Yeni mərhələ təkcə iqtisadi mənfəətlər üzərində deyil, həm də dəyişən qlobal geosiyasi reallıqlar fonunda formalaşır. Bakının təklif etdiyi enerji təhlükəsizliyi və logistik bağlantılar Brüssel tərəfindən Avropanın gələcək inkişafı üçün zərurət kimi qəbul edilir. Yenilənmiş sazişin imzalanması həm də regionda davamlı sülhün və təhlükəsizliyin mühüm qarantlarından birinə çevriləcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin mart ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 4,16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 6,13,3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 13 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 18 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 18 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 19 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 19 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 19 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 17 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Ombudsmanın Azərbaycanda insan hüquqlarının qorunması haqqında məruzəsi hazırlanıb

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 14-cü maddəsinə uyğun olaraq, ombudsmanın Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında 2025-ci il üzrə məruzəsi hazırlanıb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, il bitdikdən sonra iki aydan gec olmayaraq ombudsman illik məruzəni Azərbaycan Prezidentinə təqdim edir və həmin məruzə ilə Milli Məclis qarşısında çıxış edir. İllik məruzə, eyni zamanda Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və baş prokurora göndərilir.

Ombudsmanın illik məruzəsi Konstitusiya qanunu ilə müəyyənləşdirilmiş qaydada 2026-cı il fevralın 24-də Azərbaycan Prezidentinə təqdim edilib və müvafiq dövlət qurumlarına göndərilib. 2025-ci il üzrə məruzədə İnsan hüquqları üzrə müvəkkilin Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət orqanları, bələdiyyələr və digər qurumlar, habelə vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi, insan hüquqları pozuntularının qarşısının alınması sahəsində fəaliyyəti, hüquqi maarifləndirmə və elmi-analitik işin nəticələri, ictimaiyyətlə və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı, beynəlxalq əlaqələri, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlmiş təklif və tövsiyələri öz əksini tapıb.

Məruzə Milli Məclisdə dinlənildikdən sonra geniş ictimaiyyətin tanış olması üçün mediada yayımlanacaq.



# İKİƏSRLİK CİNAYƏTLƏRİN ƏDALƏTLİ YEKUN CƏZASI

Ona qarşı irəli sürülən ittihama əsasən müəyyənləşdirilib ki, Ruben Vardanyan xarici ölkə vətəndaşı olduğu halda terror-təxribat əməlləri törətmək məqsədilə 2022-ci ilin sentyabrında Azərbaycan Respublikasının dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar qanunsuz keçərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi əraziyə daxil olmuş, həmin ərazidə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılması və fəaliyyətinin təşkilində, habelə idarələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə insanların həlak olmasına və digər ağır nəticələrə səbəb olan basqınlar etmiş sözügedən qanunsuz hərbi birliklərin silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchiz olunmasında iştirak edib.

Bundan başqa, o, pul vəsaitlərini həmin qanunsuz silahlı birləşmələrin terrorçuluq fəaliyyətinin təşkil olunmasına yönəltməklə terrorçuluğu maliyyələşdirib.

Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

Məhkəmənin hökmü ilə Ruben Vardanyan da layiq olduğu cəzasını aldı!

Ömürlük milyardlarından kənarda qaldı.

Digər silahdaşları kimi, onun da kifayət qədər düşünməyə və Azərbaycan çayı içməyə vaxtı var.

❖ ❖ ❖

Daha bir zəruri əlavəyə ehtiyac duyuruq.

Deyirlər dünyada "insan haqlarının müdafiəsi ilə məşğul olan" çoxsaylı təşkilatlar var:

"Human Rights Watch", "Amnesty İnternational", "Freedom House", "Sərhədsiz reportyorlar", Beynəlxalq Ədalət Məhkəməsi və s.

**Nədənsə bu təşkilatlar əvvəlcə insanları dini, milli, irqi, böyük dövlətlərin himayəsində olub-olmamasına görə "sort"lara ayırır, sonra özünə sərf edənlərinin və yaxın saydıqlarının "hüquqlarını qoruyurlar".**

Məsələn, yuxarıda adları qeyd olunan qurumlar:

* Ermənistanın Azərbaycan torpaqlarını işğal edərək əhalini kütləvi şəkildə, zorakılıqla doğma el-obasından qovanda heç bir reaksiya vermədilər;
* Otuzillik işğal faktını, insan hüquqlarının kobud şəkildə pozulmasını qulaqardına vurdular;
* Qaradağlı, Xocalı, Bağanıs Ayrım soyqırımlarını, Azərbaycan vətəndaşlarının kütləvi qırğınlarını görmək istəmədilər;
* Hərbi əsirlərlə, girov götürülmüş mülki vətəndaşlarla vəhşi və qəddar davranışlara heç bir reaksiya vermədilər;
* Kütləvi məzarlıqların aşkara çıxarılmasına, qətlə yetirilənlərin nəşlərinin sahiblərinə qaytarılmasına dəstək olmadılar;
* Tarixi, dini, mədəni abidələrimizin, qəbiristanlıqlarımızın dağıdılaraq yerlə-yeksan edilməsinə göz yumdular;
* Bu gün də mina sahələrinin həqiqi xəritələrinin Ermənistandan alınaraq Azərbaycana verilməsinə heç bir yardım etmirlər.

**Amma məhkəmənin ədalətli hökmündən sonra yəqin ki, ağız-ağıza verərək ermənilərin müdafiəsinə qalxacaqlar.**

**"İnsan haqları", "siyasi məhbus", "hərbi əsir", "günahsız insanların həbsdə saxlanılması" kimi saxta terminlərdən gen-bol istifadə edəcəklər.**

Amma bundan əvvəl bir "vicdan tərəzisi" taparaq öz əməllərini, habelə mühakimə olunanların etdiklərini baş verənlərlə müqayisəli şəkildə çəksələr, daha ədalətli və obyektiv ola bilərlər.

*(Əvvəli qəzetimizin 24 fevral tarixli nömrəsində)*



❖ ❖ ❖

**Məhkəmənin yekun hökmü ən ədalətli yekun cəza sayıla bilər.**

*Doğrudur, bu, tam cəza deyil.*

**Qarabağda axıdılan qanlar hesabına özlərinə hədsiz sərvət toplayan, sonra Ermənistana gedərək bu marionet dövlətə prezidentlik edən əsas müharibə caniləri R.Koçaryan, S.Sarkisyan, S.Ohanyan və digərlərinin müttəhimlər kürsüsündə yerləri daim görünür.**

*Amma dünyanın işini bilmək olmaz: bəlkə nə vaxtsa həmin boş yerlər də doldurulacaqdır.*

**Hökmlərin ədalətliliyi isə heç bir şübhə doğurmur!**

Əgər Azərbaycanda güllələnmə cəzası qalsaydı, onların hamısı güllələnməyə layiq idi!







*Müddətli cəza alanların da hamısı ömürlük həbs çəkməliydilər.*

*Lakin yaşları 65-i keçdiyindən Azərbaycan məhkəməsi yenə ədaləti pozmadı, onlara ömürlük həbs cəzası vermədi.*

❖ ❖ ❖

Azərbaycan dövləti müharibədə qalib gələrək ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etməyi də, işğalçı müharibənin səbəbkarlarını və iştirakçılarını cəzalandırmağı da, yeri gələndə alicənablıq göstərərək bağışlamağı da bacarır.

Və bütün bunları hüququn aliliyini və yüksək humanistlik prinsiplərini uca tutmaqla edir.

Uzun müddət məhkəmə istintaqı apararaq müttəhimləri və şahidləri dinlədikdən, ifadələri qiymətləndirdikdən sonra Azərbaycan məhkəməsinin çıxardığı hökm belədir:

**Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Mnatsakanyan Levon Henrixi, Manukyan David Azati, İşxanyan Davit Rubeni, Babayan David Klimi** qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsinlər və cəzalarını həbsxanada çəksinlər.

**Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Sahakyan Bako Sahaki** bir sıra cinayətlər törətməkdə təqsirli bilinərək qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsinlər və cəzalarının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksinlər.

**Babayan Madat Arakeli** təqsirli bilinərək qəti olaraq 19 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Paşayan Melikset Vladimiri** təqsirli bilinərək qəti olaraq 19 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 8 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Martirosyan Qarik Qriqori** təqsirli bilinərək qəti olaraq 18 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 8 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Allahverdiyan Davit Nelsoni** təqsirli bilinərək qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 6 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Balayan Levon Romiki** təqsirli bilinərək qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Beqlaryan Vasili İvani** təqsirli bilinərək qəti olaraq 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Stepanyan Qurgen Homerosi** təqsirli bilinərək qəti olaraq 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Qazaryan Erik Roberti** təqsirli bilinərək qəti olaraq 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

❖ ❖ ❖

Bu gün də Ermənistanda qisasçılıq niyyətilə yaşayan, əli Azərbaycan vətəndaşının nahaq qanına bulaşmış çoxsaylı generallar, müxtəlif ranqlı hərbçilər çoxdur.

**Həm də onların əlləri təkcə azərbaycanlı qanına batmayıb...**

**Onlar həm də Erablurun yaranmasının və ilbəil sahəsinin genişlənməsinin başlıca təqsirkarlarıdır.**

*Xam xəyallara düşərək öz cavanlarının ölümünə səbəb olanları bəlkə də nə vaxtsa ağıllanan, baş verənlərdən doğru-düzgün nəticələr çıxaran ermənilərin özləri cəzalandıracaqlar.*

**Bu gün faşist Njdeyə heykəl qoyub onu ilahiləşdirmək olar və edirlər də...**

**Amma daha heç kəs ölmüş oğullarını dirildərək erməni analarına qaytara bilməyəcəkdir.**

Tarixi saxtalaşdırmaq yox, onu olduğu kimi öyrənərək doğru nəticə çıxarmağı da bacarmaq lazımdır.

Daha bir zəruri əlavə:

**"Ermənilərlə azərbaycanlılar genetik olaraq bir yerdə yaşaya bilməzlər" - R.Koçaryanın işğal ərazilərində bir nəfər belə azərbaycanlı olmadığı dövrdə lovğalıqla söylədiyi faşist ruhlu tezisdir.**

Bu gün Ermənistan ərazisində bir nəfər də azərbaycanlı yaşamır.

Amma bir qrup erməni uzun müddət və ömürlük Azərbaycanda yaşayacaqdır.

Həm də Azərbaycan çayı içə-içə.

**Bəxtiyar SADIQOV**

# Mədəniyyətimizin böyük hamisi

## Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin bərpasına böyük töhfələr verir

**27 mindən çox vətəndaşımız artıq əzəli torpaqları olan Qarabağ və Şərqi Zəngəzurda məskunlaşıb. Ümumilikdə isə 70 mindən çox şəxs azad olunmuş torpaqlarda yaşayır, təhsil alır, müxtəlif sahələrdə çalışır. Təbii ki, bütün bunlar işğaldan azad olunmuş ərazilərdə görülən sürətli yenidənqurma və bərpa işlərinin nəticəsidir.**

**Qarabağ və Şərqi Zəngəzura dönüş adət və ənənələrimizin, mədəniyyətimizin qayıdışını da şərtləndirir. Bu baxımdan işğaldan azad olunmuş ərazilərdə tarixən mövcud olan mədəniyyət və dini abidələrin bərpası, yenidən qurulması qarşıya qoyulan vəzifələrdən biridir. Heydər Əliyev Fondu bu missiyanı Mehriban Əliyevanın rəhbərliyi ilə uğurla reallaşdırır.**

**Qarabağ və Şərqi Zəngəzurda keçirilən mühüm mədəni tədbirlərin və festivalların təşəbbüskarı və təşkilatçısı, eyni zamanda Qarabağ irsinin dünyada tanıdılması istiqamətində yorulmadan fəaliyyət göstərən Mehriban Əliyeva tarixi torpaqlarımızı da öz ruhuna qovuşdurur.**

**Qısa müddət ərzində Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda bir çox abidə yenidən qurulub və ya bərpa edilib.**






### Vaqifin muzey-məqbərə kompleksi və büstü

Qarabağda Heydər Əliyev Fondu tərəfindən ilk bərpaolunan abidələrdən biri Vaqifin məqbərəsidir. Muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimi 2021-ci il avqustun 29-da baş tutub. Cəmi bir neçə aya ərsəyə gələn muzey kompleksi avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günlərində qapılarını ziyarətçilərə açıb. Xatırladaq ki, 2021-ci ilin martından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılıb və bu çərçivədə işçi layihələr hazırlanıb. Bu layihələr əsasında isə fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənib və abidənin tarixi görkəmi bərpa edilib. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub.

Onu da qeyd edək ki, 1982-ci il yanvarın 14-də Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məqbərənin daxilində Molla Pənah Vaqifin heykəltaraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdu. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edilmişdi. Azərbaycan Ordusunun qələbəsindən sonra 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Prezident İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verilmişdi.

Yeni abidə 2021-ci ildə Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən qurulub. Bürüncdən hazırlanan şairin büstü isə əvvəlki yerinə qaytarılaraq Şuşadakı evinin yaxınlığında quraşdırılıb.

### Yeni Şuşa məscidi

Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan yeni məscidin tikintisini Heydər Əliyev Fondu davam etdirir. Şəhərdə inşa ediləcək yeni məscidin forması 8 rəqəmini əks etdirir. Bu rəqəm Şuşanın azadlığı - Zəfər Gününü simvolizə edir. Məscidin iki minarəsi 11 rəqəmini əks etdirəcək. Minarələrinin hündürlüyü 72 metr olacaq məscid Şuşanın yuxarı hissəsində inşa edilir. Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni əks etdirəcək. Məscid Şuşa şəhərinin yuxarı hissəsində tikilir. İnşasının bu il yekunlaşdırılması nəzərdə tutulub.

### Üzeyir bəy Hacıbəylinin heykəli və ev-muzeyi

Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan Üzeyir bəy Hacıbəylinin heykəli 2021-ci ilin avqustunda Şuşada ucaldılıb. Bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində qoyulub. Abidə heykəltaraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tərəfindən hazırlanıb.

Qeyd edək ki, dahi bəstəkarın ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən 2022-ci ilin aprel ayında bərpa işləri başlayıb. 2024-cü ildə isə açılışı olub.

Bərpa prosesi evin ilkin görünüşünə uyğun olaraq bünövrələrin möhkəmləndirilməsini, döşəmənin, fasadların və dam örtüyünün bərpasını, daxili və xarici bəzək işlərini, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasını, həmçinin həyətyanı sahənin yaşıllaşdırılmasını əhatə edib. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası və yenidən qurulması işləri görülüb. Muzey binasında aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb. Burada muzeyin konsepsiyası üzrə Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin xilas edilən eksponatları nümayiş olunur.

Mədəniyyət ocağının birinci mərtəbəsində Üzeyir bəy Hacıbəylinin ailəsi, uşaqlıq illəri, təhsili haqqında sənədlər, məlumat və digər müxtəlif eksponatlar yer alıb. Bu mərtəbədəki ikinci otaqda Ü.Hacıbəylinin Qori Müəllimlər Seminariyasında təhsili, pedaqoji fəaliyyəti, müəllifi olduğu əsərlər və məqalələri nümayiş olunur. Burada divarboyu "Sənsiz" romansından notların əks olunduğu fraqment də yer alıb.

İkinci mərtəbədə bəstəkarın tamaşaya qoyulan əsərlərinin ilk premyeralarının afişa və proqramları, eləcə də tələbələrini, səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunur. Burada divarboyu "Koroğlu" operasından notların əks olunduğu fraqment yer alıb.

Ev-muzeyində Üzeyir bəy Hacıbəylinin səhnələşdirilən əsərlərindəki obrazlar üçün çəkilən eskizlər yerini tutub, əsərlərinin proqram və afişalarının kollajından ibarət divar dizayn edilib. Həmin bölmədə bəstəkarın həyatı, fəaliyyəti, onun əsərləri əsasında lentə alınan filmlərdən kadrlar nümayiş olunur.

### Yuxarı Gövhər ağa məscidi

Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpaolunan dini abidələrimizdən biri də Yuxarı Gövhər ağa məscididir. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılaraq əvvəlki formasına qaytarılıb. İbadət ocağı ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Yuxarı Gövhər ağa və ya Cümə məscidi Şuşa şəhərinin mərkəzi meydanında yerləşən və şəhər ərazisində tikilmiş ən qədim məsciddir. Məscidin inşası dörd mərhələdə həyata keçirilib. Ərazidə ilk məscid Qarabağ xanlığının və Şuşa qalasının banisi Pənahəli xanın göstərişi ilə Qarabağ xan sarayı ilə paralel, təxminən 1750-ci illərdə qamışdan inşa edilib. İbrahimxəlil xan hakimiyyətə gəldikdən sonra 1768-1769-cu illərdə bu məscidin yerində daşdan yenisi tikilib. XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşa minarəli üçüncü məscid inşa edilib. 1883-cü ildə isə bu məscidin yerində Şuşanın dördüncü və sonuncu Cümə məscidi inşa edilib.

### Aşağı Gövhər ağa məscidi

Heydər Əliyev Fondu tərəfindən geniş bərpa işlərindən sonra 2024-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə Aşağı Gövhər ağa məscidinin açılışı baş tutub. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Məscid şəhərin tarixi-memarlıq rəmzlərindən biridir.

2021-ci ilin dekabr ayından məsciddə fond tərəfindən bərpa işlərinə başlanılıb. İlkin memarlıq üslubunun qorunması ilə həyata keçirilən bərpa işləri məscidlə yanaşı, ərazidəki mədrəsə binasını da əhatə edib. Xarici mütəxəssislərin iştirakı ilə qübbələrin daxili səthində tarixi naxış hissələri mikroinyeksiya üsulu ilə bərkidilib.

Bərpa işləri zamanı Aşağı Gövhər ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscid divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının dağıntılarının bir qismi də konservasiya olunub.

Məscid ərazisindəki tarixi mədrəsə binasında muzey yaradılıb. "Qarabağ və Şərqi Zəngəzur Muzeyi: İşğaldan əvvəl və sonra. Dirçəliş." mövzusundakı ekspozisiyada Qarabağın və Şərqi Zəngəzurun işğaldan əvvəlki dövrü, işğal illərində ermənilər tərəfindən dağıdılmış dini abidələr, tarix və mədəniyyət abidələri, ekosid barədə faktlar, o cümlədən hazırda dirçəlişinə dair məlumatlar, foto və videomateriallar yer alıb.

### Mehmandarovların malikanə kompleksi

Ötən ilin mayında Heydər Əliyev Fondu tərəfindən təmir-bərpa edildikdən sonra istifadəyə verilən abidələrdən biri də Şuşada Mehmandarovların malikanə kompleksidir. Malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, əvvəlki vəziyyətinə gətirilib.

Malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Bu kompleksə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. Böyük yaşayış binası sovet dövründə Şuşa Şəhər Xəstəxanası kimi fəaliyyət göstərib. İşğaldan sonra böyük bina tamamilə dağıdılıb. Kiçik yaşayış binası isə işğalçılar tərəfindən muzey kimi istifadə edilib. Kompleks ərazisindəki məscid həm də məhəllə məscidi funksiyasını yerinə yetirib. İşğal dövründə məscid Geologiya Muzeyi kimi istifadə edilib. Tikilinin memarı Kərbəlayi Səfixan Qarabaği olub.

### Çöl Qala məscidi

Heydər Əliyev Fondu tərəfindən 2023-cü ildən bərpa işlərinə başlanılan dini abidələrdən biri olan Çöl Qala məscidinin ötən il açılışı baş tutub. Məscid XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub və Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikdirilib. Məscid minarəsiz formada inşa edilib. Onun forması Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı şəkildə, ümumi girişi asimmetrik düzülmüş əsas fasaddan ibarət olub. Restavrasiya nəticəsində dəmir giriş qapısı və hasar üzərindəki məhəccərlər Qarabağ memarlığına xas bəzəklərlə hazırlanıb. Məscid giriş hissə, ibadət zalı və köməkçi otaqlardan ibarətdir. Şuşanın digər məscidlərindən fərqli olaraq, burada giriş sağ tərəfdən daş pillələrlə təmin edilib.

Məscidin inşasında istifadə olunan daşlar bərpa edilib, mehrab yenidən qurularaq üzərinə "Qurani-Kərim"dən ayələr və naxışlar işlənib.

Çöl Qala məscidinin yaxınlığında yerləşən və XIX əsrə aid olan Çöl Qala bulağı da bərpa edilib. Dördbucaqlı formada olan bulaq yaxınlıqdakı məscidlərin üslubunda inşa edilib. Bərpa prosesində bulağın orijinal memarlıq üslubu qorunub, strukturu möhkəmləndirilib və əvvəlki görünüşü özünə qaytarılıb.

### "Yasəmən" hoteli

Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən layihələrdən biri də "Yasəmən" hotelidir. XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən üç yaşayış binası işğal zamanı dağıdılaraq istifadəyə yararsız vəziyyətə salınıb. Bərpa zamanı binalarda təməlbərkitmə işləri görülüb, dağılmış hissələri yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülüb.

### "Şirin su" hamamı

Bərpa edilən memarlıq abidələrindən biri də "Şirin su" hamamıdır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən açılışı baş tutan hamam 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunub. Bu hamam isə xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi şirin su ilə təchiz edilib. Məhz buna görə də "Şirin su" hamamı adlandırılıb.

Bərpa işləri zamanı hamama aidiyyəti olmayan hissələr sökülüb, bütün xarici və daxili hissələr bərpa edilib.

### Mamayı məscidi

Fond tərəfindən bərpa edilən Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. İşğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunub. Aparılan bərpa işləri zamanı erməni vandalizminin bütün izləri aradan qaldırılıb.

### Saatlı məscidi

Heydər Əliyev Fondunun layihəsi çərçivəsində Saatlı məscidi də yenidən həyata qayıdıb. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb.

Bu məscid də 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. 1980-ci illərdə məsciddə restavrasiya işləri aparılıb. Şuşanın işğalından sonra məscid xarabalığa çevrilib, onun zəngin interyerləri tamamilə, minarəsi isə qismən dağıdılıb. Araşdırmalara görə, Saatlı məscidinin yerində 1759-cu ildə Qarabağ xanı Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olub, bu mədrəsədə böyük Azərbaycan şairi Molla Pənah Vaqif dərs deyib.

### Ağdam Cümə məscidi

Dini abidələrin bərpası istiqamətində görülən işlərin bariz nümunələrindən biri də Ağdam Cümə məscididir. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. Məscid ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilib. Ağdam şəhərindəki Cümə məscidi də memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən 1868-1870-ci illərdə tikilib. Məscid Ağdam şəhərində dağıdılmayan tək tikilidir, lakin ermənilər tərəfindən burada mal-qara və donuzlar saxlanılıb.

### Mir Möhsün Nəvvabın qəbirüstü abidəsi

Cıdır düzündə yerləşən Mir Möhsün Nəvvab Qarabağinin məzarı və qəbirüstü abidəsi də Heydər Əliyev Fondu tərəfindən bərpa olunub.

Şuşa şəhəri işğal altında olduğu illərdə məzar ermənilər tərəfindən tamamilə dağıdılıb. 2023-cü ilin mart ayından ərazidə müvafiq işlərə başlanılıb və qəbirüstü abidə bərpa olunub.

### Milli Xalça Muzeyinin Şuşa filialı

Şəhərin yuxarı məhəlləsində yerləşən Xalça Muzeyinin binası XIX əsrin ikinci yarısında inşa edilib. İşğal dövründə yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən yenidən bərpa edilib. Hazırda muzeydə yeni xalça ekspozisiyası təqdim olunur. Ekspozisiyada vaxtilə təxliyə edilmiş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Burada ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.

Keçmiş məcburi köçkünlərin qayıdışı üçün bu gün Qarabağ və Şərqi Zəngəzurda görülən davamlı quruculuq işləri kimi, bu torpaqlarda mədəniyyətin dirçəlişi, tarixə qayıdış, milli irsin özünə qaytarılması istiqamətində də Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr davam etdirilir. Bu nəcib missiyası ilə birinci xanım Qarabağa və Şərqi Zəngəzura milli ruhu, mədəni həyatı yenidən qaytarır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Vaşinqtonda törədilən təxribat

## Bu, beynəlxalq hüquq müstəvisində qiymətləndirilməlidir



Azərbaycan Respublikası Prezidenti Vaşinqtonda olarkən onun təhlükəsizliyinə qarşı törədilən təxribat hadisəsindən sonra sual yaranır: dövlət başçılarının xarici səfərləri zamanı onların şəxsi toxunulmazlığının və təhlükəsizliyinin təmin olunması üçün beynəlxalq hüquq normaları baxımından hansı əsaslar mövcuddur? Sözügedən məsələ beynəlxalq hüququn hansı hüquqi mexanizmləri ilə tənzimlənir?

### Beynəlxalq konvensiyaların tələbləri

Dövlət başçılarının şəxsi toxunulmazlığının və təhlükəsizliyinin təmin olunmasında Birləşmiş Millətlər Təşkilatının əsasən 2 mühüm beynəlxalq konvensiyasını qeyd etmək lazımdır:

- 14 dekabr 1973-cü il tarixli "Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya;

- 8 dekabr 1969-cu il Xüsusi Missiyalar haqqında Konvensiya.

Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası 1973-cü il Konvensiyasının iştirakçı dövlətləridir. Konvensiya ABŞ-a münasibətdə 13 dekabr 1976-cı ildə ratifikasiya edildikdən sonra 20 fevral 1977-ci ildən qüvvəyə minmişdir. Azərbaycan isə 2 fevral 2001-ci il tarixli qanunla bu Konvensiyaya qoşulmuşdur.

1973-cü il Konvensiyası beynəlxalq müdafiədən istifadə edən şəxslərə qarşı zorakılığı cinayət hesab edir və iştirakçı dövlətləri bu halları cəzalandırmağa və ya ekstradisiya etməyə məcbur edir. Konvensiyanın 1(a) maddəsinə görə, beynəlxalq müdafiədən istifadə edən şəxslərin əsas kateqoriyasına xarici ölkədə səfərdə olan dövlət başçıları və onları müşayiət edən ailə üzvləri daxildir. Həmçinin hökumət başçıları, xarici işlər nazirləri, diplomatik agentlər və onların ailə üzvləri də bu kateqoriyada yer alırlar.

Konvensiyanın 2-ci maddəsinə əsasən, beynəlxalq müdafiədən istifadə edən şəxslərə qarşı aşağıdakı hərəkətlər cinayət sayılmalıdır:

a) beynəlxalq müdafiədən istifadə edən şəxsin rəsmi yerləşdiyi binaya, şəxsi yaşayış yerinə və ya nəqliyyat vasitəsinə qarşı onun şəxsiyyətini və ya azadlığını təhlükə altına qoya biləcək zorakı hücum;

c) belə hücumun törədilməsi ilə hədələmə;

d) belə hücuma cəhd;

### Təxribatçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd ediblər

19 fevral 2026-cı il tarixində Prezident İlham Əliyevin Sülh Şurasının ilk iclasında iştirak məqsədilə Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində bir qrup etirazçı Vaşinqton şəhərində yerləşən "Waldorf Astoria" mehmanxanasının qarşısında təxribatçı hərəkətlər törədib. ABŞ-nin Gizli Xidməti tərəfindən bəyan olunduğu kimi, mehmanxana ərazisi rəsmi təhlükəsizlik perimetrinə daxil olub. Bu məkan məhz 1973-cü il Konvensiyasında da təsbit olunduğu kimi, beynəlxalq müdafiədən istifadə edən dövlət başçısının səfər müddətində nəzərdə tutulmuş rəsmi yerləşdiyi bina və müvəqqəti şəxsi yaşayış yeri olmuşdur. Ərazi yerli polis və təhlükəsizlik qüvvələri ilə birgə mühafizə olunan təhlükəsiz zona olmuşdur.

Konvensiyanın 2-ci maddəsi dövlət başçısı üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsinin də onun şəxsiyyətini və ya azadlığını təhlükə altına qoya biləcək zorakı hücumlardan və belə hücumla hədələməkdən mühafizə olunmasını nəzərdə tutur. Dövlət başçısının nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığı nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin əməkdaşları dərhal müdaxilə ediblər.

Bir sıra media subyektlərində yayımlanan video və materiallar göstərir ki, Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən, təxribatçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd edib və Prezident avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər. Bu qrup həmçinin Azərbaycan siyasi rəhbərliyinin ünvanına nalayiq ifadələr işlədib. Videogörüntülərdən aydın olur ki, guya "dinc aksiya" üçün gəlmiş təxribatçılardan biri hətta qəfil hərəkətlə mühafizəçilərin üzərinə atılaraq kardonunu yarmağa və təhlükəsiz zonaya daxil olmağa cəhd edib. Bu zorakı hərəkət dövlət başçısının avtomobilinə real təhlükə riskinin yaranması demək idi. Bu Konvensiyanın 2-ci maddəsi ilə Prezidentin "şəxsiyyətini və azadlığını təhlükə altına qoya biləcək nəqliyyat vasitəsinə zorakı hücum cəhdi" kimi tövsif olunur.

Belə vəziyyətdə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin əməkdaşları səlahiyyətləri çərçivəsində operativ tədbirlər görərək birbaşa vəzifə borclarını - dövlət başçısının təhlükəsizliyini təmin etmək öhdəliyini yerinə yetirmişlər. Onlar mövcud şəraitə uyğun və real təhlükəni dəf etmək məqsədilə təxribatçıları zərərsizləşdirmişdir. Beləliklə, sağlamlığa zərər vurmaq məqsədilə fiziki güc tətbiq olunmayıb, görülən təhlükəsizlik tədbirləri yalnız kardonun yarılmaması məqsədilə edilən müdaxilə olmuşdur.

Təxribatçılar tərəfindən edilən zorakı hücuma cəhdlər Konvensiyanın 2-ci maddəsində təsbit olunan hallara tam uyğun gəlir. Beləliklə, mühafizəçilər beynəlxalq hüquqa uyğun olaraq, beynəlxalq müdafiə altında olan Azərbaycan Prezidentinə qarşı baş verən təxribatın qarşısını alıb və dövlət başçısının təhlükəsizliyini təmin ediblər.

### Təhlükəsizlik əməkdaşlarının statusu

Vaşinqtonda baş verənlər 8 dekabr 1969-cu il Xüsusi Missiyalar haqqında Konvensiyanın tətbiqi kontekstində də təhlil edilə bilər. Nəzərə alsaq ki, dövlət başçısının ABŞ səfəri yeni təsis olunmuş Sülh Şurasının birinci iclasında iştirakla bağlı olmuşdur. Bu kontekstdə dövlət başçısının qısamüddətli rəsmi səfəri "xüsusi missiya" kimi də nəzərdən keçirilə bilər.

BMT-nin Xüsusi missiyalar haqqında 1969-cu il Konvensiyasına görə, səfərdə olan rəsmi missiyanın heyətinə təhlükəsizlik əməkdaşları da daxil edilə bilər. Onlara missiya müddətində toxunulmazlıq hüququ təmin olunur. Bu halda mühafizəçilər də beynəlxalq hüquqa əsaslanan xüsusi müdafiə statusu qazanır və 1969-cu il Konvensiyasının 1(b) maddəsinin tətbiq dairəsinə düşür.

### Vaşinqton insidenti ətrafında formalaşdırılan media narrativi və siyasi kampaniya

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin əməkdaşları öz vəzifələrini qanuni çərçivədə yerinə yetiriblər. Belə hallarda 1973-cü il Konvensiyasına əsasən, təxribatçılar məsuliyyət daşıyır və müvafiq qanuni tədbirlər görülməlidir. Belə ki, 1973-cü il Konvensiyası beynəlxalq müdafiədən istifadə edən şəxslərə qarşı zorakılığı cinayət hesab edir və iştirakçı dövlətləri bu halları cəzalandırmağa və ya ekstradisiya etməyə məcbur edir.

Videonun bəzi xarici media qurumlarında qərəzli şərhlərlə yayımlanması bunun Azərbaycana qarşı uzun illərdir qarayaxma aparan dairələrin növbəti kampaniyası olduğunu göstərir. Təsadüfi deyil ki, hadisə ilə bağlı ilk açıqlama verənlər arasında Amerika Erməni Milli Konqresi və qatı ermənipərəst konqresmen Frank Pallone yer aldı.

Azərbaycanın ABŞ-dəki səfirliyinin mətbuat üçün yaydığı açıqlamada qeyd olunur ki, "ölkənin liderinə və mühafizə olunan kortejə qarşı yönəlmiş hərəkətlərə cavab olaraq həyata keçirilmiş təhlükəsizlik tədbirlərinin yanlış təqdim edilməsi" niyyətlidir.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən həyata keçirilmiş zəruri tədbir həm milli, həm də beynəlxalq hüquqdan irəli gələn öhdəliklərin təmininə yönəlib. Belə ki, təxribatçılar tərəfindən törədilən hərəkətlər, konvensiya ilə qorunan şəxslərin təhlükəsizliyini pozmaq məqsədli olub və hüquqi cəhətdən cinayət tərkibinə malikdir.

Əgər vaxtında reaksiya verilməsəydi, bu halda hansı nəticələr yarana bilərdi? Beynəlxalq müdafiədən istifadə edən dövlət başçısının təhlükəsizliyinin təmini hipotetik suallara buraxıla bilməz.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***

# "Səfir Fergus Auldu baş verən bu təxribatı dayandırmaq üçün fəaliyyətə çağırırıq"

Azərbaycandan bir qrup QHT rəhbəri Böyük Britaniya parlamentinin İcmalar Palatasının spikeri Lindsay Hoyleyə, Lordlar Palatasının spikeri Lord Forsyth of Drumleanə, Beynəlxalq Vəkillər Assosiasiyasının prezidenti Claudio Viscoya və Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Aulda açıq məktubla müraciət edib.




AZƏRTAC müraciəti təqdim edir:

"Hörmətli Böyük Britaniya parlamentinin İcmalar Palatasının spikeri Lindsay Hoyle, Lordlar Palatasının spikeri Lord Forsyth of Drumlean, Beynəlxalq Vəkillər Assosiasiyasının prezidenti Claudio Visco və Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld! Biz - Azərbaycanın insan hüquq və azadlıqları, mədəni irs üzrə ixtisaslaşmış bir qrup vətəndaş cəmiyyəti təmsilçiləri olaraq, sizlərə Böyük Britaniya parlamentinin bir sıra üzvlərinin və Beynəlxalq Vəkillər Assosiasiyasının İnsan Hüquqları İnstitutunun rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı açıq hörmətsizliyi, yoxlanılmamış və təsdiqlənməmiş, saxta məlumatlar əsasında ölkəmizə qarşı siyasi kampaniyaya başlamaları səbəbindən müraciət edirik.

Onlar "Dağlıq Qarabağda erməni mədəni irsinin məhv edilməsi" barədə sorğu elan edib.

Əvvəla qeyd olunmalıdır ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Qarabağ bölgəsi Azərbaycanın suveren ərazisidir və bu, Böyük Britaniya da daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə tanınır. Bu səbəbdən sorğuda "Dağlıq Qarabağ" termini hüquqi və tarixi baxımdan yanlışdır və ondan istifadə edilməsi qəbuledilməzdir. Bu, Azərbaycan dövlətinin ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş çirkin siyasi kampaniyadır. Bu cür yanaşma sorğunun obyektivlik və hüquqi etibarlılıq meyarlarına cavab verməyəcəyini indidən nümayiş etdirir.

Ermənistan və Azərbaycan arasında münaqişə başa çatıb, hər iki dövlət sülh prosesində böyük tərəqqi əldə edib. Sülh sazişinin mətni artıq hazırdır və ötən il avqustun 8-də Vaşinqtonda keçirilən Zirvə görüşü zamanı paraflanıb. Aydındır ki, imzalanacaq sülh sazişi iki dövlət arasında gündəlikdə olan məsələləri əhatə edir. İndiki şəraitdə belə bir sorğunun regiondan kənar aktorlar tərəfindən aparılması onun əsas niyyət və məqsədi haqqında böyük suallar doğurur. Bu təşəbbüsün məqsədi iki ölkə arasında normallaşma prosesini pozmaq və inamı sarsıtmaq, revanşizmi alovlandıraraq separatçı meyilləri canlandırmağa hesablanıb. Bu isə Azərbaycan və Ermənistan arasında normallaşma prosesini ilk gündən dəstəkləyən, hər iki ölkə ilə artıq strateji tərəfdaşlıq quran Britaniya hökumətinin marağında olmamalıdır. O zaman Britaniya parlamentarilərinin qoşulduğu bu təşəbbüs kimlərin maraqlarına xidmət edir?

Sorğunun suallarının məzmunu və forması isə onun obyektiv araşdırma məqsədi daşımadığını açıq şəkildə ortaya qoyur. Suallar faktların neytral şəkildə müəyyən edilməsinə xidmət etmək əvəzinə sanki artıq "pozuntu"nun "baş verdiyi" fərziyyəsini irəli sürür. Suallarla tanış olan hər kəs aydın şəkildə görə bilər ki, bu sorğu beynəlxalq ictimaiyyətdə yanlış təsəvvür yaratmağa yönəlmiş, qərəzli və müəyyən maraq qruplarının siyasi sifarişi əsasında hazırlanmış ssenaridir.

Panelin tərkibi və orada təmsil olunan şəxslərin keçmişdəki ziddiyyətli və qərəzli fəaliyyətləri isə onların bu prosesdəki neytrallığı ilə bağlı ciddi suallar doğurur. Paneldə təmsil olunan britaniyalı deputatlar ötən onilliklər ərzində davamlı anti-Azərbaycan mövqe sərgiləyən şəxslərdir. Maraqlıdır ki, paneldə keçmişdə Ermənistanın Azərbaycana qarşı təcavüzünü və işğalçılıq siyasətini dəstəkləyən ənənəvi parlamentarilərdən başqa, mövzu üzrə neytral mövqeyə malik heç bir parlamentari daxil edilməyib. Belə olan halda sorğunun obyektivliyinə kim ümid bəsləyə bilər? Aydındır ki, burada məqsəd hər hansı obyektiv hüquqi nəticəyə gəlmək deyil, artıq mövcud olan qərəzli mövqeyi Britaniya parlamentində aktiv saxlamaqla normallaşma səylərinə Britaniya hökumətinin dəstəyini səngitməkdir.

Həmçinin sorğunun ilkin mərhələsində Azərbaycanın heç bir rəsmi qurumu ilə əlaqə saxlanılmayıb, toplanan məlumatlar isə yoxlanılmayıb və təsdiqlənməyib. İkinci mərhələdə isə sorğu çərçivəsində suallar yalnız elektron poçt vasitəsilə cavablandırılır ki, bu da prosesin şəffaflığı ilə bağlı haqlı suallar yaradır.

Sorğu çərçivəsində Britaniya parlamentində fevralın 25-də keçiriləcək ilk dinləmədə Beynəlxalq Vəkillər Assosiasiyasının İnsan Hüquqları İnstitutunun (IBAHRI-nin) dəvəti əsasında "Center for Justice and Truth" adlı QHT-nin müvafiq hesabat təqdim etməsi gözlənilir. CFJT-nin internet səhifəsində yerləşdirilən hesabatda regionun tarixi geniş şəkildə təhrif olunub, separatizm prizmasından təqdim edilib, Qarabağın Azərbaycan ərazisi olması faktı sual altına alınıb. IBAHRI-nin parlamentdəki ilk dinləmə üçün bu cür qərəzli təşkilata müraciət etməsi sorğunun ümumi məqsədinin nədən ibarət olduğunu bir daha ortaya qoyur.

Otuzillik işğal dövründə Ermənistan hakimiyyəti tərəfindən Qarabağda və Şərqi Zəngəzurda, həmçinin Ermənistanda Azərbaycan xalqına məxsus yüzlərlə mədəni, dini və tarixi irs nümunələri sistemli şəkildə dağıdılıb, təhqir olunub və mənşəyi təhrif edilib. Eyni zamanda Azərbaycan xalqına qarşı etnik təmizləmə, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törədilib. Bəs nə üçün IBAHRI sözügedən beynəlxalq hüquq pozuntularına diqqət yetirmir? Bu cür yanaşma hüquqi obyektivlik və qərəzsizlik prinsipləri ilə uyğun gəlirmi?

Xüsusilə vurğulamaq yerinə düşər ki, IBAHRI öz rəsmi veb-səhifəsində hüququn aliliyinin təmin edilməsini və beynəlxalq faktaraşdırma sahəsində qərəzsiz hesabatların hazırlanmasını əsas prinsipləri kimi bəyan edir. Əgər IBAHRI hazırkı sorğunu dayandırmayacaqsa və bu prinsiplərə uyğun hərəkət etməyəcəksə, bu halda həmin bu müddəaları rəsmi internet səhifəsindən çıxarmalıdır.

Biz bu sorğunun təşəbbüskarlarının fəaliyyətinin Böyük Britaniya Parlamentinin müvafiq etik mexanizmləri çərçivəsində - Britaniya hökumətinin regionla bağlı rəsmi xarici siyasət kursunu sabotaj edən addım kimi araşdırılmasını tələb edir və bu qərəzli yanaşmanı hüququn siyasi məqsədlər naminə alətə çevrilməsi presedenti kimi kəskin pisləyirik.

Sorğu prosesinin dərhal dayandırılmasını tələb edirik!

Biz Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auldu məsələni təxirə salınmadan araşdırmağa və baş verən bu təxribatı dayandırmaq üçün fəaliyyətə çağırırıq. Biz bu mövzuda səfir Fergus Auld ilə görüşməyə hazırıq".

**Açıq məktubu imzalayıblar:**

***1. Əmir ƏLİYEV - "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin sədri***

***2. Rizvan NƏBİYEV - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin İdarə Heyətinin üzvü***

***3. Novella CƏFƏROVA - "D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Cəmiyyətinin Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri***

***4. Səadət BƏNƏNYARLI - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri***

***5. Səidə QOCAMANLI - "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri***

***6. Əliməmməd NURİYEV - "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri***

***7. Zaur İBRAHİMLİ - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü***

***8. Oğuz MƏMMƏDOV - "Zəngi - Tarixi İrsin Öyrənilməsi" İctimai Birliyinin sədri***

***9. Dilqəm ƏHMƏD - "Çapar" Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyinin sədri***

***10. Fariz XƏLİLLİ - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri***

***11. Xalid KAZIMOV - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri***

***12. İradə RZAZADƏ - "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri.***

# Antimilli qüvvələr xalq-iqtidar birliyinə ziyan vura bilməz

Prezident İlham Əliyevin "Sülh Şurası" toplantısına dəvət olunması ilə əlaqədar ABŞ-yə səfəri müddətində yerləşdiyi hotelin ətrafında bu ölkədə yaşayan, özlərini "siyasi mühacir" adlandıran vətən xainləri təxribat törətməyə cəhd etdilər. Sözsüz ki, bu, əvvəlcədən planlaşdırılmış, müəyyən qüvvələr tərəfindən hazırlanmış ssenarinin bir hissəsi idi.

Bakı Dövlət Universitetinin kafedra müdiri professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Azərbaycan dövləti tək regionda deyil, beynəlxalq aləmdə baş verən siyasi proseslərə təsir göstərə biləcək söz sahibinə malik bir ölkəyə çevrilib: "Azərbaycanın dünyanın ən güclü dövləti olan ABŞ ilə Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalaması, Münxen Təhlükəsizlik Konfransında Avropanın aparıcı dövlətlərinin Azərbaycanın dünyanın siyasi, iqtisadi proseslərdə olduqca önəmli bir dövlət olduğunu vurğulamaları ölkəmizin diplomatik sahədə olduqca böyük uğur qazanmasının nümunəsidir".



Ekspert qeyd edib ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artdıqca düşmən qüvvələr də ölkəmizə qarşı təxribatları aktivləşdirməyə çalışır. Bəzi Qərb dairələri ilə yanaşı, ölkəmizin daxilində də dövlətimizə və dövlət başçımıza qarşı təxribatçı hərəkətlər hazırlayan mərkəzlərin olması şübhə doğurmur. ABŞ-də Erməni Milli Komitəsi ilə sıx əlaqədə olan konqresmen Frenk Pelloni, Avropa Parlamentində Avropadakı erməni lobbisinin əlində oyuncağa çevrilən korrupsioner deputatlar, eləcə də ölkəmizin daxilində Ramiz Mehdiyevin əlaltıları olan Əli Kərimli və digərlərinin hərəkətləri dövlətimizə qarşı yönəlmiş iyrənc planların tərkib hissəsidir. "Əlbəttə ki, xaricdə yaşayan, pula görə dövlətini, xalqını satan bir qrup antimilli ünsürlər də bu oyunda iştirak edən xırda törtöküntülərdir. Düşmən qüvvələr heç zaman xalq-iqtidar birliyinə zərrə qədər də ziyan vura bilməz. Azərbaycan xalqı müdrik xalqdır və bu xalqın milli maraqları hər şeydən uca tutan güclü, cəsarətli, dünyanın bir çox dövlət və hökumət başçısının böyük Lider adlandırdıqları İlham Əliyev kimi Prezidenti və Ali Baş Komandanı var", - deyə K.Əliyeva əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan elminin strateji transformasiyası və yeni inkişaf paradiqması



**Azərbaycan Milli Elmlər Akademiyasının yaradılması 1945-ci ildə xalqımızın intellektual tarixində mühüm dönüş nöqtəsi idi. Akademiyanın fəaliyyəti sovet dövründə fundamental elmin inkişafına xidmət etmiş, müstəqillik dövründə isə yeni dövlət quruculuğu prosesinin intellektual təminatçılarından birinə çevrilmişdir.**

**Müasir dövrdə qlobal iqtisadiyyatın texnoloji əsaslara keçidi elmin rolunu keyfiyyətcə dəyişmişdir. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci il noyabrın 3-də AMEA-nın 80 illik yubileyində etdiyi çıxış yalnız yubiley xarakterli nitq deyildi, o, dövlətin elmi-texnoloji inkişaf strategiyasının konseptual ifadəsi kimi qiymətləndirilməlidir. Bu çıxışda Azərbaycan elminin gələcək inkişaf istiqamətləri, onun iqtisadiyyat, texnologiya, milli təhlükəsizlik və dövlət quruculuğu ilə əlaqələri sistemli şəkildə təqdim edilmiş və vəzifələr müəyyən olunmuşdur.**

## Elmin dövlətin yeni inkişaf modelində yeri: postresurs paradiqması

Prezident İlham Əliyev çıxışında müasir dövlətlərin inkişaf modelinin əsasını təşkil edən amilləri belə müəyyən edir: "Hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir". Bu tezis dövlətin inkişaf fəlsəfəsinin klassik resurs modelindən bilik və texnologiya modelinə keçdiyini göstərir. Amerikalı iqtisadçı Paul Romer tərəfindən irəli sürülmüş endogen iqtisadi artım nəzəriyyəsinə görə, iqtisadi inkişafın əsas mənbəyi məhz bilik və texnologiyadır. Bu nəzəriyyə göstərir ki, bilik digər resurslardan fərqli olaraq tükənmir, əksinə, istifadə olunduqca artır. Prezident bu yanaşmanı daha da konkretləşdirərək qeyd edir: "Tükənməz sərvət isə intellektual potensialdır".

Elmin dövlət siyasətində statusu fundamental şəkildə dəyişir və o, iqtisadi inkişafın əsas strateji resursuna çevrilir. Tarixi təcrübə göstərir ki, Yaponiya və Cənubi Koreya zəngin təbii resurslara malik olmasalar da, güclü elmi potensial sayəsində inkişaf etmiş ölkələrə çevrilmişlər. Çünki innovasiya və texnologiyalar iqtisadi artımın əsas mənbəyinə çevrilmiş və bu yanaşma beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır.

## Elmin texnoloji transformasiyası və süni intellekt prioriteti

Prezident çıxışında texnoloji inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edir: "Texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür". Bu fikir Azərbaycan elmi qarşısında konkret strateji vəzifələr qoyur. Xüsusi diqqətçəkən məqam süni intellektlə bağlı verilən siyasi mesajdır: "Süni intellekt… ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq". Bu yanaşma Azərbaycan elminin texnoloji modernləşmə mərhələsinə daxil olduğunu açıq göstərməklə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası"nda irəli sürülən vəzifələri bir daha təsdiq edir.

Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir. Beynəlxalq təcrübəyə baxsaq görərik ki, Kanada dünyada süni intellekt üzrə strategiyanı ilk hazırlayan ölkələrdən biri olaraq "Pan-Canadian AI Strategy" ilə bu sahədə innovasiyaları artırmaq və süni intellektin cəmiyyətə müsbət təsirlərini təşviq etməyi, Amerika Birləşmiş Ştatları "American AI Initiative" strategiyası vasitəsilə müvafiq sahədə tədqiqat və innovasiyaları maliyyələşdirməyi, Çin "Next Generation AI Development Plan" çərçivəsində qlobal liderliyi hədəfləməyi, "AI City" kimi layihələr vasitəsilə şəhərlərin idarə olunmasında süni intellekt texnologiyalarından istifadə etməyi, Yaponiya "Cəmiyyət 5.0" konsepsiyası çərçivəsində texnologiyanın insan rifahına xidmət etməsini prioritet götürməyi, "Avropa Süni İntellekt Strategiyası"nda süni intellektin tətbiqi zamanı etik prinsipləri və sosial dəyərləri ön plana çıxarmağı hədəfləyir.

Hazırkı qlobal geosiyasi və iqtisadi mühitdə digər dövlətlərin transmilli texnoloji şirkətlər tərəfindən süni intellekt texnologiyaları vasitəsilə Azərbaycanın milli strateji prioritetlərinə təsir göstərilməsi istisna olunmur. Bununla yanaşı, terrorçu təşkilatlar və beynəlxalq kriminal qruplaşmalar tərəfindən bu texnologiyalardan istifadə meyilləri hüquq-mühafizə orqanları üçün yeni çağırışlar yaradır. Süni intellektin tətbiqi ilə ölkəmizə qarşı dezinformasiya hücumlarının həyata keçirilməsi cəhdlərinin, saxta kontent, o cümlədən "deepfake" audio-video materiallardan istifadənin artması da istisna deyil. Göstərilən təhdidlərin qarşısının alınması və onlara qarşı əks-tədbirlərin həyata keçirilməsi üçün süni intellekt alətlərindən istifadə genişləndirilməlidir.

Müasir tədqiqatlar göstərir ki, süni intellekt texnologiyaları həm də iqtisadiyyatın bütün sahələrini transformasiya edən əsas texnoloji faktordur. Prezidentin bu çağırışı Azərbaycan elminin fundamental tədqiqat modelindən innovasiya və texnologiya modelinə keçidini zəruri edir.

## Elmin iqtisadi sistemə inteqrasiyası: innovasiyayönümlü model

Amerikalı iqtisadçı Joseph Schumpeter innovasiyanı iqtisadi inkişafın əsas faktoru kimi qiymətləndirmiş və onu "yaradıcı dağıdıcılıq" prosesi adlandırmışdır. İnnovasiyayönümlü model elmi biliklərin yeni texnologiyalara, məhsullara və xidmətlərə çevrilməsi prosesini əhatə edir. XXI əsrdə iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi təbii resurslar deyil, elm, texnologiya və innovasiyadır. Bu səbəbdən müasir dövlətlər elmi fəaliyyətin iqtisadi sistemə inteqrasiyasını strateji prioritet kimi müəyyən edirlər. İnnovasiyayönümlü model elmi biliklərin iqtisadi dəyərə çevrilməsini təmin edən inkişaf modelidir. Bu modeldə elm yalnız nəzəri bilik istehsal edən sahə deyil, həm də iqtisadi artımın əsas mənbəyi kimi çıxış edir.

Prezident İlham Əliyev beynəlxalq təcrübəyə əsaslanaraq çıxışında elmin praktik nəticələrinin vacibliyini xüsusi vurğulayır: "Bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatda". Bu tezis Azərbaycan elminin institusional transformasiyasının əsas istiqamətini müəyyən etməklə dünya təcrübəsi ilə uyğunluq təşkil edir. Məsələn, ABŞ, Almaniya, Cənubi Koreya kimi ölkələrdə elmi fəaliyyət iqtisadiyyatın əsas komponentinə çevrilib. Bu modeldə universitetlər və elmi institutlar innovasiya mərkəzlərinə çevrilir, elmi nəticələr kommersiyalaşdırılır və texnologiya transferi mexanizmləri yaradılır. Azərbaycan üçün də bu model strateji əhəmiyyət kəsb edir. Elmin iqtisadi sistemə inteqrasiyası universitet-sənaye əməkdaşlığı, texnoparklar və innovasiya mərkəzləri, startap ekosistemləri, texnologiya transferi sistemlərinin yaradılmasını zərurətə çevirir ki, bu da elmi nəticələrin iqtisadi tətbiqini təmin edir. Buna misal kimi Stanford University ilə texnologiya şirkətləri arasında əməkdaşlıq nəticəsində formalan Silikon Vadisini nümunə göstərmək olar.

## Hərbi sənaye və elm: yeni elmi sənaye kompleksinin formalaşdırılması

Müasir dövrdə hərbi sənaye yalnız istehsal sahəsi deyil, həm də yüksək texnologiyaların yaradıldığı kompleks elmi-texnoloji sistemdir. Bu sistemin əsas hərəkətverici qüvvəsi alimlər, mühəndislər və tədqiqatçılardır. XX və XXI əsrin təcrübəsi göstərir ki, dövlətin hərbi üstünlüyü ilk növbədə elmi üstünlükdən qaynaqlanır. Məsələn, ABŞ-də DARPA, Türkiyədə ASELSAN və ROKETSAN, İsraildə isə dövlətin müdafiə sənayesi institutları alimlərin iştirakı ilə yaradılıb və bu ölkələrin texnoloji gücünün əsasını təşkil edir.

Prezident çıxışında hərbi sənayenin inkişafında alimlərin rolunu xüsusi vurğulayır: "Biz… Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik." Bu çağırış Azərbaycan elminin müdafiə sənayesində iştirakının prioritet elan edildiyini göstərir ki, bu da raket texnologiyaları, pilotsuz uçuş aparatlarının yaradılması (PUA), radar sistemləri, süni intellekt əsaslı müdafiə sistemləri, elektron müdafiə texnologiyaları və hərbi innovasiyanın inkişafını zəruri edir. Eyni zamanda bu dəvət Azərbaycanda hərbi-elmi kompleksin formalaşması prosesinin tərkib hissəsi kimi təqdim olunur. Hərbi sənayenin əsas məhsulu olan silah və müdafiə sistemlərinin yaradılması fundamental və tətbiqi elmi tədqiqatların nəticəsidir. Məsələn, pilotsuz uçuş aparatlarının yaradılması aerodinamika, proqramlaşdırma, materialşünaslıq və elektronika sahəsində çalışan alimlərin birgə fəaliyyətinin nəticəsidir.

Müasir dövrdə hərbi texnologiyaların idxalından asılılıq dövlət üçün risk yaradır. Bu səbəbdən ölkələr öz milli elmi potensialına əsaslanan müdafiə sənayesi yaratmağa çalışırlar. Çünki bu proses yerli texnologiyalar yaradır, xarici asılılığı azaldır və milli təhlükəsizliyi gücləndirir ki, bu da texnoloji suverenliyin əsasını təşkil edir.

## Elmin milli təhlükəsizlik sistemində rolu

XXI əsrdə milli təhlükəsizlik anlayışı klassik hərbi təhlükəsizlik çərçivəsindən çıxaraq texnoloji, informasiya, bioloji və kibertəhlükəsizlik komponentlərini də əhatə edən kompleks sistemə çevrilmişdir. Bu sistemin əsasını isə elmi biliklər və texnoloji innovasiyalar təşkil edir. Müasir dövrdə dövlətlərin təhlükəsizliyi yalnız ordunun gücü ilə deyil, elmi potensialı ilə də müəyyən olunur. Məsələn, NATO və digər beynəlxalq təhlükəsizlik qurumları təhlükəsizlik strategiyalarında elmi tədqiqatları prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir.

Prezident çıxışında elmi milli təhlükəsizlik kontekstində qiymətləndirir: "Kibertəhlükəsizlik… hər bir ölkənin fiziki təhlükəsizliyidir". Bu tezis elmin funksional rolunun genişləndiyini göstərir. Müasir dövrdə texnologiya dövlət təhlükəsizliyinin əsas elementinə çevrilib. Bu kontekstdən yanaşdıqda Azərbaycan elmi qarşısında kibertəhlükəsizlik texnologiyalarının yaradılması, müdafiə texnologiyalarının inkişafı və informasiya təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələr yaranır.

Milli təhlükəsizlik baxımından texnoloji asılılıq ciddi risk hesab olunur. Əgər dövlət, müdafiə texnologiyalarını idxal edirsə, xarici texnologiyalardan asılıdırsa, bu, onun təhlükəsizlik imkanlarını məhdudlaşdırır. Bu səbəbdən elmi potensial yerli texnologiyaların yaradılmasını təmin edir, texnoloji müstəqilliyi gücləndirir və milli suverenliyi qoruyur.

## Qarabağ və Şərqi Zəngəzur: elmi inkişafın yeni məkanı

Postmünaqişə mərhələsində azad edilmiş ərazilərin bərpası yalnız fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır, eyni zamanda bu ərazilərin elmi-texnoloji və innovasiya məkanına çevrilməsi strateji prioritet kimi müəyyən edilir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur regionları Azərbaycan üçün yeni elmi inkişaf platforması kimi formalaşmaqdadır.

Regionun elmi potensialının formalaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. İlham Əliyev azad edilmiş ərazilərin gələcək inkişaf modelini xarakterizə edərkən bu ərazilərin "ağıllı idarəetmə, innovasiya və yüksək texnologiyalar məkanı" olacağını vurğulamışdır. Bu yanaşma elmin regional inkişaf strategiyasına sistemli şəkildə inteqrasiya olunduğunu göstərir.

Bu kontekstdə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Qarabağ və Şərqi Zəngəzurun təbii resurslarının, biomüxtəlifliyinin, tarixi-mədəni irsinin və iqtisadi potensialının öyrənilməsi istiqamətində elmi proqramların hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Həmin tədqiqatlar regionun elmi əsaslarla bərpasına xidmət edəcək. Bu səbəbdən Prezident alimlər qarşısında konkret regional vəzifələr qoyur: "Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Azərbaycan alimlərini bu işlərə dəvət edirəm". Bu çağırış elmin dövlət quruculuğu prosesinə birbaşa inteqrasiyasını göstərir. Bu regionlar geologiya, ekologiya, energetika, urbanistika kimi sahələr üçün strateji əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur regionları bir sıra fundamental və tətbiqi elmi istiqamətlər üçün unikal laboratoriya funksiyası daşıyır. Müharibədən sonrakı ekosistemlərin bərpası, biomüxtəlifliyin tədqiqi və ekoloji monitorinq yeni elmi istiqamətlər yaranmasına səbəb olur. Regionun faydalı qazıntı ehtiyatlarının öyrənilməsi də milli iqtisadiyyat və sənaye üçün mühüm əhəmiyyət daşıyır. Azad edilmiş şəhərlər, xüsusilə Şuşa yalnız mədəniyyət paytaxtı deyil, həm də humanitar və sosial elmlərin inkişafı üçün mühüm elmi mərkəzə çevrilmək potensialına malikdir. Qarabağın digər şəhərlərində də elmi-tədqiqat mərkəzlərinin yaradılması, universitetlərin filiallarının açılması, beynəlxalq elmi konfransların təşkili regionun intellektual mühitinin formalaşmasına xidmət məqsədi daşıyır. Digər tərəfdən Füzuli və digər şəhərlərdə yaradılan yeni infrastruktur, o cümlədən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası tətbiqi elmi-texnoloji innovasiyalar üçün real təcrübə platforması rolunu oynayır.

Qarabağ və Şərqi Zəngəzur yalnız fiziki bərpa məkanı deyil, həm də elmi və innovasiya inkişafının yeni coğrafiyasıdır. Bu regionlarda elmi infrastrukturun yaradılması, tədqiqat fəaliyyətinin genişləndirilməsi və innovasiya mühitinin formalaşdırılması Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının mühüm komponentidir. Beləliklə, bu istiqamətdə atılan addımlar Qarabağ və Şərqi Zəngəzurun gələcəkdə ölkənin elmi potensialının əsas dayaqlarından birinə çevrilməsinə xidmət edir.

## Milli identikliyin formalaşdırılmasında humanitar elmlərin rolu

Amerikalı politoloq Joseph Nye tərəfindən irəli sürülmüş "yumşaq güc" konsepsiyası göstərir ki, dövlətlərin beynəlxalq mövqeyi yalnız hərbi güclə deyil, həm də onların mədəniyyəti, ideologiyası və elmi potensialı ilə müəyyən olunur. Qloballaşma və informasiya texnologiyalarının sürətli inkişafı ideoloji təhlükəsizlik məsələsini dövlətlərin təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən birinə çevirmişdir. Bu kontekstdə humanitar elmlər - tarix, fəlsəfə, politologiya, sosiologiya və filologiya - milli ideoloji təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır. Prezident də çıxışında humanitar elmlərin rolunu xüsusi vurğulayır və "Biz öz tariximizi tədqiq və təbliğ etməliyik" mesajı verir.

Humanitar elmlərin əsas funksiyalarından biri milli kimliyin elmi əsaslarla formalaşdırılmasıdır. Xüsusilə tarix elmi xalqın tarixi keçmişini araşdırır, milli yaddaşı formalaşdırır, saxta və təhrif olunmuş məlumatların qarşısını alır. Milli tarix obyektiv şəkildə tədqiq edilmədikdə bu sahədə yaranan boşluqlar xarici ideoloji təsirlərə şərait yaradır. Bu baxımdan tarix elmi ideoloji təhlükəsizliyin əsas sütunlarından biri hesab olunur.

XXI əsrdə informasiya müharibəsi ölkələrarası mübarizənin əsas formalarından birinə çevrilib. Politologiya, beynəlxalq münasibətlər və jurnalistika sahəsində çalışan alimlər beynəlxalq prosesləri təhlil etməklə, dövlətin informasiya siyasətinin formalaşmasına töhfə verir və milli maraqları elmi əsaslarla müdafiə edirlər. Bu fəaliyyət dövlətin informasiya təhlükəsizliyini gücləndirir.

Humanitar elmlər ideoloji təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynayır. Çünki humanitar elmlər milli identikliyin formalaşdırılması, informasiya təhlükəsizliyinin təmin edilməsi, ideoloji sabitliyin qorunması və dövlət siyasətinin elmi əsaslandırılmasında birbaşa rol oynayır. Beləliklə, humanitar elmlər yalnız akademik sahə deyil, həm də milli təhlükəsizlik sisteminin mühüm komponentidir. Müasir dövrdə ideoloji təhlükəsizliyin təmin edilməsi güclü humanitar elmi potensialdan birbaşa asılıdır.

## Elmi institutların institusional transformasiyası

Beləliklə, aparılmış təhlil göstərir ki, Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyindəki çıxışı Azərbaycan elminin inkişafının yeni strateji modelini müəyyən edən fundamental siyasi sənəddir. Bu model elmi dövlət inkişafının əsas resursuna çevirməklə texnoloji inkişaf və süni intellektin prioriteti, elmin iqtisadiyyatla inteqrasiyası, elmin milli təhlükəsizlik sisteminə daxil edilməsi, elmin dövlət quruculuğunda fəal iştirakı kimi prinsiplərə əsaslanır və inkişaf edir. "Hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir" fikri Azərbaycan dövlətinin inkişaf fəlsəfəsində baş verən konseptual dəyişikliyi göstərməklə bir neçə strateji nəticəyə gəlməyə əsas verir:

Birincisi, Azərbaycan postneft inkişaf modelinə keçidi rəsmi şəkildə prioritet elan edir. Prezident təbii resursların yalnız vasitə olduğunu vurğulayaraq onların əsas məqsədinin insan kapitalının inkişafına yönəldilməsini qeyd edir.

İkincisi, elm artıq yalnız akademik fəaliyyət sahəsi deyil, həm də milli inkişafın əsas resursu kimi qiymətləndirilir.

Üçüncüsü, bu yanaşma elmi fəaliyyətin dövlət təhlükəsizliyi və iqtisadi müstəqilliklə birbaşa əlaqələndirildiyini göstərir.

Bu çıxış Azərbaycan elminin XXI əsrdə inkişaf istiqamətlərini müəyyən etməklə onun klassik akademik modeldən çıxaraq dövlətin inkişafının və milli təhlükəsizliyinin əsas strateji komponentinə çevrildiyinin zəruri olmasını ifadə edir və Azərbaycan alimlərinin gələcək fəaliyyət istiqamətlərinin yol xəritəsini göstərir.

***Surə SEYİD,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent, araşdırmaçı-jurnalist***

# Rəqəmsallaşma zamanın tələbidir

Süni intellektin tətbiqi və rəqəmsallaşma bu gün bütün dünyada inkişafı müəyyən edən əsas amillər kimi özünü göstərir. Əgər bir ölkə rəqəmsal transformasiyanı prioritet hesab etmirsə, deməli, qlobal rəqabətdə geri qalmaq riski ilə üz-üzədir.

Azərbaycanda bu sahədə müasir tələblərə cavab verən yanaşma mövcuddur. Artıq vahid dövlət strategiyası formalaşıb. Süni intellekt və rəqəmsallaşma ilə bağlı aydın siyasi xətt müəyyən edilib. Bu sahə dövlətimizin uzunmüddətli inkişaf prioritetləri sırasında yer alır.

Fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirildi. Müşavirədə rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiqi ilə bağlı məsələlər müzakirə olundu. Həmin məsələlər ölkəmizin inkişaf modelində yeni mərhələnin başlanğıcıdır.

Rəqəmsal tranformasiyada əsas məsələlərdən biri data mərkəzlərinin yaradılmasıdır. Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizdə bir neçə data mərkəzinin qurulması planlaşdırılır və bu infrastruktur süni intellekt sistemlərinin stabil fəaliyyəti üçün vacibdir. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycanın enerji və nəqliyyat infrastrukturunda topladığı təcrübə indi rəqəmsal infrastruktura transformasiya olunmalıdır. Enerji və nəqliyyat dəhlizləri ölkəmizi regional mərkəzə çevirdiyi kimi, fiber-optik dəhlizlər və data mərkəzləri də Azərbaycanı rəqəmsal qovşağa çevirə bilər.



Qeyd edək ki, süni intellekt və innovasiya sahəsində özəl sektorun dəstəklənməsi də ölkəmizin bu sahədə imkanlarını artırır. Bu isə yeni investisiyaların cəlb olunmasına və əlavə gəlir mənbələrinin yaranmasına imkan yaradır.

Vacib məsələlərdən biri də kadr hazırlığıdır. Texnologiya öz-özünə inkişaf etmir. Onu inkişaf etdirən və tətbiq edən insan kapitalıdır. Bu baxımdan Prezident İlham Əliyevin təsdiq etdiyi "2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nda ixtisaslı kadrların hazırlanması mühüm məsələlər sırasındadır.

Bu strategiya ölkəmizin süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu gücləndirmək məqsədi daşıyır.

Strategiyanın əsas məqsədləri sırasında qeyd edilən sahədə innovasiya və rəqəmsal inkişafın təbliği, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, süni intellekt əsaslı məlumat idarəetməsinin təşkili, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, məlumat təhlükəsizliyi və etik qaydalara əsaslanan idarəetmə mexanizmlərinin qurulması yer alır.

Eyni zamanda süni intellektin inkişafı üçün əsas infrastruktur tədbirləri çərçivəsində yüksəksəviyyəli hesablama resurslarının qurulması, açıq məlumat bazalarının yaradılması və süni intellektin müxtəlif istiqamətlərdə, xüsusilə Təbii Dil Emalı texnologiyalarında tətbiqi nəzərdə tutulur. Məlumat keyfiyyətinin artırılması və böyükhəcmli məlumatların effektiv şəkildə emal edilməsi üçün milli məlumat strategiyasının hazırlanması planlaşdırılır.

Bununla yanaşı, süni intellekt sahəsində akademik tədqiqatlara dəstək verilməsi və ali təhsil müəssisələrində yeni tədris proqramlarının tətbiq olunması da əsas prioritetlərdəndir. Strategiyaya əsasən, süni intellekt sahəsində startap ekosisteminin inkişafı üçün investisiyaların artırılması, süni intellektin kommersiyalaşdırılmasını dəstəkləyən təşəbbüslərin həyata keçirilməsi, startap və sahibkarların dəstəklənməsi, yerli və xarici investorların bu sahəyə cəlb edilməsi planlaşdırılır.

Süni intellekt texnologiyalarının etik istifadəsi və təhlükəsizliyinin təmin edilməsi strategiyanın mühüm istiqamətlərindən biridir. Bu məqsədlə tənzimləyici çərçivənin yaradılması, süni intellekt alqoritmlərinin şəffaflığının təmin edilməsi, məlumat qərəzinin aradan qaldırılması və kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək.

Eyni zamanda ictimaiyyətin süni intellekt texnologiyalarına dair məlumatlılığının artırılması və onlardan istifadənin cəmiyyət üçün faydaları barədə maarifləndirici kampaniyaların aparılması nəzərdə tutulur. Yeni strategiyanın həyata keçirilməsi Azərbaycanı süni intellekt texnologiyalarının inkişafı sahəsində regionda liderlər sırasına daxil edəcək və ölkənin rəqəmsal inkişafına mühüm töhfə verəcək. Bu strategiya həmçinin süni intellekt ekosisteminin formalaşdırılması və ölkənin qlobal süni intellekt platformalarında aktiv iştirakını təmin etmək üçün bir yol xəritəsi kimi çıxış edəcək.

Beləliklə, Azərbaycan artıq yeni inkişaf mərhələsinə qədəm qoyub və bu mərhələnin əsas hərəkətverici qüvvəsi məhz rəqəmsal transformasiya və süni intellekt texnologiyalarıdır. Süni intellektə əsaslanan inkişaf modeli ölkəmizin iqtisadi dayanıqlığını möhkəmləndirəcək, yeni imkanlar yaradacaq və gələcək nəsillər üçün daha güclü, rəqabətqabiliyyətli bir cəmiyyət formalaşdıracaq.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

Tarix danışır

# Qərbi Azərbaycan şəhərləri və yaşayan xatirələr

Qərbi Azərbaycan anlayışı tarix və coğrafiya baxımından Cənubi Qafqazın mərkəzi hissəsində yerləşən, əsrlər boyu Azərbaycan türk etnosunun kompakt yaşadığı geniş bir arealı əhatə edir. Bu areala İrəvan xanlığının ərazisi, Göyçə gölü hövzəsi, Zəngəzur mahalı, Dərələyəz, Abaran, Vedibasar, Sürməli və digər tarixi bölgələr daxil olmuşdur. Mənbələrdə bu ərazilər müxtəlif dövrlərdə Arran, Azərbaycan vilayətləri və ya konkret inzibati-siyasi vahidlər kimi qeyd edilmişdir.

Coğrafi baxımdan Qərbi Azərbaycan Şərqi Anadolu, Naxçıvan və Qarabağla təbii-iqtisadi əlaqələrə malik vahid bir məkandır. Orta əsr müsəlman coğrafiyaçıları və tarixçiləri bu bölgəni inkişaf etmiş əkinçilik, maldarlıq və ticarət mərkəzi kimi təsvir etmişlər. İrəvan, Naxçıvan və Təbriz istiqamətində uzanan karvan yolları Qərbi Azərbaycanın regional iqtisadi sistemdə mühüm yer tutduğunu göstərir. Çay şəbəkəsi, münbit torpaqlar və dağətəyi yaylaqlar burada oturaq və yarımköçəri həyat tərzinin paralel inkişafına şərait yaratmışdır. Bu coğrafi xüsusiyyətlər regionda kənd və şəhər mədəniyyətinin harmonik şəkildə formalaşmasına səbəb olmuşdur.

XVIII əsrin ortalarından etibarən Qərbi Azərbaycan ərazisi İrəvan xanlığının tərkibində siyasi-inzibati baxımdan vahid sistem kimi fəaliyyət göstərmişdir. İrəvan xanlığı Azərbaycan dövlətçilik ənənələrinin davamı olaraq yerli əhali üzərində inzibati nəzarəti təmin etmiş, şəhərsalma, vergi sistemi və müdafiə strukturları formalaşdırmışdır. Xanlıq dövründə əhalinin əsas hissəsini azəri türkləri təşkil etmiş, etnik və dini müxtəliflik isə şəhər həyatında qarşılıqlı münasibətlər çərçivəsində tənzimlənmişdir.

XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazı işğalı Qərbi Azərbaycanın tarix və coğrafiya strukturunda köklü dəyişikliklərə yol açmışdır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra regionda məqsədyönlü köçürmə siyasəti həyata keçirilmiş, İran və Osmanlı ərazilərindən erməni əhalinin kütləvi şəkildə Qərbi Azərbaycana yerləşdirilməsi təşviq olunmuşdur. Bu proses nəticəsində bölgənin demoqrafik balansı tədricən dəyişdirilmiş, azəri türkləri isə müxtəlif təzyiq və məhdudiyyətlərlə üzləşmişdir.

XX əsrin əvvəllərində baş verən siyasi proseslər, müharibələr, inqilablar və yeni dövlət sərhədlərinin müəyyənləşdirilməsi Qərbi Azərbaycanın tarixi-coğrafi məkan kimi parçalanmasını sürətləndirmişdir. 1918-1920-ci illərdə və daha sonra sovet hakimiyyəti dövründə aparılan inzibati bölgülər bu ərazilərin Azərbaycanla təbii-coğrafi və tarixi bağlarını zəiflətmişdir. 1948-1953-cü illər deportasiyaları isə Qərbi Azərbaycanın türk əhalisinin böyük hissəsinin doğma yurdlarından zorla çıxarılması ilə nəticələnmiş, tarixi coğrafiya faktiki olaraq etnik cəhətdən yenidən formalaşdırılmışdır. Beləliklə, Qərbi Azərbaycan tarix və coğrafiya baxımından süni şəkildə dəyişdirilmiş, lakin tarixi yaddaşda və elmi mənbələrdə öz bütövlüyünü qoruyan bir məkandır.

İrəvan: itirilmiş paytaxtın yaddaşı. İrəvan şəhəri tarixi baxımdan Qərbi Azərbaycanın siyasi, inzibati və mədəni mərkəzi kimi formalaşmış, əsrlər boyu dövlətçilik və şəhər mədəniyyətinin mühüm dayaqlarından biri olmuşdur. Orta əsr mənbələrində Revan, İrəvan və ya Erivan adları ilə qeyd olunan bu şəhər strateji-coğrafi mövqeyi, ticarət yollarının üzərində yerləşməsi və inkişaf etmiş şəhər infrastrukturu ilə seçilmişdir. İrəvan yalnız hərbi-strateji qala şəhəri deyil, eyni zamanda sənətkarlıq, ticarət, maarifçilik və dini həyatın cəmləşdiyi çoxşaxəli urbanistik mərkəz idi. Daha əvvəllər isə şəhər Ərburuni adlanmışdır. Bu isə türkcədən ərlərin, kişilərin bulunduğu məkan anlamına gəlir.

XVIII əsrdə İrəvan xanlığının paytaxtı kimi şəhər Azərbaycan xanlıqlar sistemində xüsusi yer tutmuşdur. Xanlıq dövründə İrəvanda onlarca məscid, mədrəsə, karvansara, hamam və bazar fəaliyyət göstərmiş, şəhərin sosial-mədəni həyatı Şərq şəhərsalma ənənələrinə uyğun şəkildə inkişaf etmişdir. İrəvan qalası, Göy məscid, Sərdar sarayı kimi memarlıq nümunələri şəhərin Azərbaycan-türk mədəni kimliyinin maddi təcəssümü idi. Əhalinin etnik tərkibində azəri türkləri üstünlük təşkil etmiş, digər icmalar isə şəhər həyatında tabeçilik və qarşılıqlı münasibətlər çərçivəsində mövcud olmuşdur.

XX əsrin əvvəllərində baş verən siyasi qarşıdurmalar, 1918-1920-ci illər hadisələri və daha sonra sovet hakimiyyəti dövründə aparılan siyasət İrəvanın azəri türk əhalisinin şəhərdən demək olar tam çıxarılması ilə nəticələnmişdir.



Məscidlərin dağıdılması və ya təyinatının dəyişdirilməsi, qəbiristanlıqların məhv edilməsi, yaşayış məhəllələrinin adlarının dəyişdirilməsi şəhərin tarixi yaddaşının silinməsinə yönəlmiş ardıcıl addımlar idi. İrəvanın urbanistik məkanı yeni ideoloji çərçivəyə uyğun yenidən formalaşdırılmışdır. Bununla belə İrəvanın itirilməsi yalnız fiziki məkanın itirilməsi anlamına gəlmir. Şəhər azəri türklərinin kollektiv yaddaşında "itirilmiş paytaxt" obrazı kimi yaşayır.

Göyçə mahalı: təbiət və yaddaşın sintezi. Göyçə mahalı Qərbi Azərbaycanın tarixi-coğrafi məkanında təbiət ilə insan yaddaşının ən sıx vəhdət təşkil etdiyi bölgələrdən biri olmuşdur. Göyçə gölü hövzəsində yerləşən bu mahal zəngin su ehtiyatları, münbit torpaqları, dağətəyi yaylaqları və əlverişli iqlim şəraiti ilə əsrlər boyu Azərbaycan türklərinin məskunlaşdığı mühüm yaşayış arealı kimi formalaşmışdır. Təbiətin verdiyi bu imkanlar burada oturaq kənd təsərrüfatı, maldarlıq və balıqçılığın paralel inkişafına, eyni zamanda güclü icma münasibətlərinin yaranmasına şərait yaratmışdır.

Tarixi mənbələr və etnoqrafik materiallar göstərir ki, Göyçə mahalı Azərbaycan xalqının mədəni irsində xüsusi yer tutmuşdur. Bu bölgə aşıq sənətinin mühüm mərkəzlərindən biri kimi tanınmış, Aşıq Ələsgər başda olmaqla onlarca görkəmli söz və saz ustası yetişdirmişdir. Göyçə aşıq mühiti yalnız bədii yaradıcılıq deyil, həm də tarixi yaddaşın, sosial münasibətlərin və mənəvi dəyərlərin qorunub saxlanıldığı canlı mədəni institut funksiyasını yerinə yetirmişdir. Dastanlar, qoşmalar və el şeirləri mahalın tarixini, köçləri və itkiləri yaddaşda saxlayan bədii vasitələrdən olmuşdur.

XX əsrdə həyata keçirilən deportasiya siyasəti Göyçə mahalının sosial və mədəni strukturuna ağır zərbə vurmuşdur. 1948-1953-cü illərdə Azərbaycan türklərinin kütləvi şəkildə doğma yurdlarından çıxarılması nəticəsində kəndlər boşalmış, əsrlər boyu formalaşmış icma münasibətləri dağılmışdır. Təbiətlə insan arasında qurulmuş harmonik əlaqə zorakı şəkildə qırılmış, Göyçə mahalı demoqrafik və mədəni baxımdan süni transformasiyaya məruz qalmışdır.

XX əsrin əvvəllərində Cənubi Qafqazda gedən siyasi proseslər Zəngəzurun taleyində həlledici rol oynamışdır. 1918-1920-ci illərdə baş verən silahlı toqquşmalar, ardınca sovet hakimiyyətinin qurulması ilə aparılan inzibati-siyasi qərarlar bölgənin tarixi-coğrafi bütövlüyünü pozmuşdur. Zəngəzurun Azərbaycanın əsas ərazilərindən ayrılması yalnız inzibati dəyişiklik deyil, eyni zamanda tarixi əlaqələrin, iqtisadi bağların və sosial münasibətlərin qırılması demək idi.

Sovet dövründə və xüsusilə sonrakı mərhələlərdə Zəngəzurda Azərbaycan türklərinə qarşı aparılan təzyiq və köçürmə siyasəti nəticəsində bölgənin demoqrafik strukturu köklü şəkildə dəyişdirilmişdir. Kəndlərin boşaldılması, yaşayış məkanlarının dağıdılması və toponimlərin erməniləşdirilməsi Zəngəzurun tarixi yaddaşının silinməsinə yönələn ardıcıl siyasətin tərkib hissəsi olmuşdur. Bu proseslər nəticəsində təkcə əhali deyil, həm də əsrlər boyu formalaşmış sosial-mədəni sistem dağılmışdır.

Zəngəzurun itirilməsi Qərbi Azərbaycanın ümumi taleyində xüsusi simvolik məna daşıyır. Bu bölgə təkcə ərazi itkisi deyil, həm də Azərbaycan xalqının tarixi-coğrafi bütövlüyünün pozulmasının bariz nümunəsidir. Ailə bağlarının qırılması, məzarların geridə qalması, yaylaq-qışlaq yollarının itirilməsi Zəngəzur yaddaşını dərin travmatik tarixə çevirmişdir. Bu gün Zəngəzur anlayışı yalnız keçmişi xatırlatmır, həm də regional təhlükəsizlik, nəqliyyat-kommunikasiya xətləri və geosiyasi balans məsələləri kontekstində aktual olaraq qalır. Tarixi baxımdan Zəngəzur Qərbi Azərbaycanla Naxçıvan arasında təbii körpü olmuşdur və bu körpünün qırılması regionda uzunmüddətli siyasi və sosial nəticələr doğurmuşdur. Beləliklə, Zəngəzur həm strateji məkan, həm də qırılmış tarixi bağların simvolu kimi Qərbi Azərbaycan yaddaşında xüsusi yer tutur.

Şəhər adlarının dəyişdirilməsi və yaddaş siyasəti. Qərbi Azərbaycanda həyata keçirilən ən sistemli və məqsədyönlü siyasətlərdən biri şəhər və kənd adlarının dəyişdirilməsi olmuşdur. Toponimlərin dəyişdirilməsi təkcə inzibati xarakterli akt deyil, həm də tarixi yaddaşın silinməsinə yönəlmiş ideoloji və siyasi alət kimi çıxış etmişdir. Çünki coğrafi adlar həmin ərazinin etnik mənsubiyyətini, tarixi keçmişini və mədəni kimliyini əks etdirən simvolik daşıyıcılardır.

XIX əsrin əvvəllərindən etibarən, xüsusilə Rusiya imperiyası dövründə və daha intensiv şəkildə XX əsrdə Qərbi Azərbaycan ərazisində minlərlə Azərbaycan mənşəli toponim mərhələli şəkildə dəyişdirilmişdir. İrəvan, Zəngəzur, Göyçə və digər bölgələrdə şəhər, kənd, çay, dağ və yaylaq adlarının erməniləşdirilməsi nəticəsində tarixi coğrafiya süni olaraq yenidən formalaşdırılmışdır. Bu proses təkcə adların dəyişdirilməsi ilə məhdudlaşmamış, eyni zamanda həmin adların tarixi izahının da rəsmi diskursdan çıxarılması ilə müşayiət olunmuşdur.

Toponim siyasəti deportasiya və etnik təmizləmə prosesləri ilə paralel aparılmışdır. Əhali fiziki olaraq ərazidən çıxarıldıqdan sonra onun geridə qoyduğu izlər - adlar, abidələr, qəbiristanlıqlar sistemli şəkildə aradan qaldırılmışdır. Beləliklə, yeni nəsillər üçün həmin məkanların tarixi mənşəyi yox edilmişdir. Bu, yaddaşın zorakı olaraq yenidən kodlaşdırılması demək idi.

Şəhər adlarının dəyişdirilməsi Qərbi Azərbaycanda aparılan yaddaş siyasətinin əsas sütunlarından birini təşkil etmişdir. Tarixi adların yox edilməsi ilə kollektiv yaddaşın zəiflədilməsi, alternativ tarix narrativinin formalaşdırılması və beynəlxalq ictimai rəyin istiqamətləndirilməsi hədəflənmişdir. Bu baxımdan toponim dəyişiklikləri təkcə daxili inzibati qərarlar deyil, həm də uzunmüddətli siyasi-strateji layihənin tərkib hissəsi olmuşdur. Bununla belə dəyişdirilmiş toponimlər tarixi yaddaşlardan tam silinə bilməmişdir. Azərbaycan elmi ədəbiyyatında, arxiv sənədlərində, xəritələrdə və xüsusilə deportasiya olunmuş ailələrin şifahi yaddaşında bu adlar yaşamaqda davam edir.

Yaşayan xatirələr: şifahi tarix və ailə yaddaşı. Qərbi Azərbaycanın itirilmiş şəhərləri və kəndləri bu gün fiziki reallıqdan daha çox yaddaş məkanları kimi mövcuddur. Deportasiya olunmuş ailələrin nəsilləri üçün İrəvanın küçələri, Göyçənin kəndləri, Zəngəzurun dağ yolları xəritələr üzərində deyil, ailə söhbətlərində, xatirələrdə, aşıq yaradıcılığında və yaddaş narrativlərində yaşayır. Babaların, nənələrin danışdığı hekayələr, köhnə evlərin təsviri, itirilmiş məzar yerləri və yarımçıq qalan həyat yolları bu məkanların canlı təsəvvürünü formalaşdırır.

Şifahi tarix Qərbi Azərbaycan məsələsində xüsusi əhəmiyyət daşıyır. Çünki rəsmi sənədlər və statistik materiallar çox vaxt deportasiyaların insan talelərində yaratdığı faciəni tam əks etdirə bilmir. Ailə yaddaşında qorunan hekayələr isə bu proseslərin sosial-psixoloji ölçülərini üzə çıxarır. Köç anları, geridə qoyulan evlər, yarımçıq qalan təsərrüfatlar və itirilmiş qohumluq əlaqələri şifahi tarix vasitəsilə nəsildən-nəslə ötürülür və tarixi hadisələrə insani ölçü qazandırır. Ailə albomları, köhnə məktublar, şəhadətnamələr və şəxsi sənədlər Qərbi Azərbaycanın maddi olmayan irsinin mühüm tərkib hissəsidir.

Qərbi Azərbaycan mövzusunun tədqiqində elmi-publisistik yanaşma xüsusi metodoloji və ictimai əhəmiyyətə malikdir. Bu yanaşma bir tərəfdən tarixi faktların, arxiv sənədlərinin və elmi təhlilin obyektivliyini qoruyur, digər tərəfdən isə insan talelərini, emosional yaddaşı və kollektiv travmanı oxucuya daha anlaşılan və təsirli formada təqdim edir.

Eyni zamanda elmi publisistika gələcək tədqiqatlar üçün intellektual körpü rolunu oynayır. Bu janrda yazılan məqalələr yeni suallar formalaşdırır, mövcud narrativləri təkrar düşünməyə vadar edir və gənc tədqiqatçıların mövzuya marağını artırır. Qərbi Azərbaycan məsələsində bu xüsusiyyət xüsusilə vacibdir, çünki mövzu həm tarix, həm də çağdaş siyasi reallıqlarla sıx bağlıdır.

Beləcə, Qərbi Azərbaycan şəhərləri, kəndləri və mahalı yalnız xəritələrdə mövcud deyil, onlar insan yaddaşında, şifahi tarixdə, ailə xatirələrində və mədəni irsdə yaşayır. İrəvanın küçələri, Göyçənin kəndləri, Zəngəzurun dağ yolları və dəyişdirilmiş toponimlər - bütün bu elementlər kollektiv yaddaşın, milli kimliyin və tarixi ədalətin əsas simvollarıdır. Qərbi Azərbaycanın şəhərlərinin tarixi, mədəni və demoqrafik təhlili göstərir ki, keçmişin hadisələrini yalnız xatırlamaq kifayət deyil, onları analiz etmək, şifahi və yazılı yaddaş vasitəsilə qorumaq və gələcək nəsillərə çatdırmaq tarixi məsuliyyətin tərkib hissəsidir. Beləliklə, Qərbi Azərbaycan məsələsi təkcə tarixçi və politoloqların deyil, bütün Azərbaycan xalqının diqqətini tələb edən, milli yaddaş və kimlik məsələsi olaraq qalır.

*Gülgün QULİYEVA,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

## Amnistiya tətbiq edilən şəxslərin sayı açıqlanıb



Fevralın 19-na olan məlumata əsasən, amnistiya aktı ümumilikdə 18 min 355 nəfərə şamil edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Namiq Əliyev Binəqədi Rayon Prokurorluğunda keçirilən "Açıq qapı" günündə "Amnistiya aktı: dövlət humanizminin ifadəsi" adlı seminarda məlumat verib.

Bildirilib ki, onlardan 5 638 nəfər azadlıqdan məhrumetmə cəzasından azad olunanlar, 572-si Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş şəxslər, qadınlar, əlillər və 18 yaşına çatmayanlardır.

Həmçinin böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum edilmiş 96 şəxsə amnistiya aktı şamil edilib.

Bununla yanaşı, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 5 ildək azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslər 1081, az ağır cinayət törətdiklərinə görə təyin edilmiş cəzanın çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər 3386, ilk dəfə ağır cinayət törətdiklərinə görə təyin edilmiş cəzanın çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər 503 nəfər təşkil edib.

Digər cəzalardan azad edilənlərin sayı isə 9215 nəfərdir. Onların arasında intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxslər 9, azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş şəxslər 7703, hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum edilmiş şəxslər 146, islah işləri cəzasına məhkum olunmuş şəxslər 685, ictimai işlər cəzasına məhkum edilmiş şəxslər 68, cərimə cəzasına məhkum olunmuş böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər, habelə 3000 manatadək cərimə cəzası təyin edilən şəxslər 604 nəfərdir.

Həmçinin şərti tətbiq olunmuş cəzalardan azad edilənlərin sayı 878 nəfər təşkil edib. Onların arasında şərti məhkum olunanlar, şərti olaraq vaxtından əvvəl azad edilənlər və cəzası təxirə salınanlar 826, digər cəzalara şərti məhkum edilənlər, şərti olaraq vaxtından əvvəl azad edilənlər və cəzası təxirə salınanlar 52 nəfərdir.

Cəzaları 6 ay azaldılanların sayı isə 1537 nəfərdir. Bunların arasında az ağır cinayət törətməyə görə təyin edilmiş azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsi 1 ildən artıq olan şəxslər 1371, ehtiyatsızlıqdan ağır cinayət törətdiklərinə görə 5 ildən artıq müddətə təyin edilmiş azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsi 6 aydan artıq olan şəxslər 166 nəfərdir.

Cinayət məsuliyyətindən azad edilənlər 1087 nəfər təşkil edib. Onların arasında ibtidai istintaq və təhqiqat orqanları tərəfindən 795, məhkəmələr tərəfindən 292 nəfərə amnistiya aktı tətbiq olunub.

## Aİ Azərbaycanı post-Rusiya enerji xəritəsinin əsas sütunu adlandırır

Avropa İttifaqı Azərbaycanı Avropanın post-Rusiya dövründə formalaşan yeni enerji arxitekturasının əsas dayaqlarından biri kimi qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Aleks Kimaninin "OilPrice" nəşrində dərc olunmuş məqaləsində bəhs edilir.

Müəllif qeyd edir ki, Rusiya qazından asılılığın azaldılması strategiyası çərçivəsində Brüssel Bakı ilə enerji əməkdaşlığını prioritet istiqamət kimi müəyyənləşdirib. Avropa Komissiyası 2027-ci ilə qədər Azərbaycandan qaz idxalının illik həcmini təxminən 20 milyard kubmetrədək artırmağı hədəfləyir. Bu, Aİ-nin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və təchizat mənbələrinin şaxələndirilməsi baxımından mühüm addım kimi qiymətləndirilir.

Azərbaycan qazı Avropaya "Cənub qaz dəhlizi" vasitəsilə nəql olunur. Xəzər hövzəsindən başlayan bu strateji marşrut Gürcüstan və Türkiyə üzərindən Trans-Adriatik Boru Kəməri ilə İtaliya bazarına və digər Avropa ölkələrinə çıxış əldə edir. Nəticədə Azərbaycan qazı artıq İtaliya, Yunanıstan, Bolqarıstan və bir sıra digər dövlətlərin enerji balansında mühüm yer tutur.

Məqalədə vurğulanır ki, enerji əməkdaşlığı yalnız təbii qaz ixracı ilə məhdudlaşmır. Aİ və Azərbaycan arasında "yaşıl enerji", xüsusilə külək və günəş enerjisi layihələri, eləcə də Qara dəniz vasitəsilə elektrik ötürülməsi təşəbbüsləri üzrə əməkdaşlıq da genişlənir. Bu, Avropanın uzunmüddətli enerji transformasiyası strategiyasına uyğun şəkildə həyata keçirilir.

Aleks Kimani qeyd edir ki, mövcud geosiyasi reallıqlar fonunda Azərbaycan Avropa üçün həm etibarlı tərəfdaş, həm də strateji enerji mərkəzi rolunu gücləndirir. Enerji marşrutlarının təhlükəsizliyi və sabit təchizat baxımından Bakı post-Rusiya dövründə formalaşan yeni enerji xəritəsində açar mövqedə qərarlaşır.

Qeyd edək ki, Avropa İttifaqının enerji siyasətində əsas prioritetlərdən biri təchizat risklərinin azaldılması və alternativ mənbələrin genişləndirilməsidir və bu kontekstdə Azərbaycanın rolu xüsusi əhəmiyyət kəsb edir.

## Xocalı Azərbaycanın yalnız qan yaddaşı deyil, həm də bir millətin ədalət axtarışının təcəssümüdür

XX əsrin sonunda Cənubi Qafqazda baş verən ən ağır faciələrdən biri olan Xocalı soyqırımı hadisəsi təkcə bir şəhərin yox, bütün bir xalqın taleyində silinməz iz qoydu. Strateji mövqeyə malik bu kiçik şəhər Dağlıq Qarabağ münaqişəsinin ən qanlı səhifəsinə çevrilərək dünya tarixinin acı yaddaşına yazıldı. Burada yaşananlar müharibənin sərt qanunlarını aşaraq, dinc əhaliyə qarşı misilsiz qəddarlığın rəmzinə çevrildi.

Bu barədə AZƏRTAC-a açıqlamasında Ankara Hacı Bayram Vəli Universitetinin Beynəlxalq əlaqələr fakültəsinin dosenti, siyasi ekspert Bahar Özsoy bildirib.

O vurğulayıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verənlər Azərbaycan xalqının yaddaşında qara hərflərlə həkk olunub: "Azərbaycan Respublikası Baş Prokurorluğunun rəsmi məlumatına görə, bir neçə saatlıq hücum nəticəsində yüzlərlə mülki şəxs - qadınlar, uşaqlar, qocalar vəhşicəsinə qətlə yetirildi. Qarlı meşələrdə, dağ yollarında həyat uğrunda qaçmağa çalışan insanların izləri bu gün də silinməyən ağrının simvoludur. Bu hadisə nə sıradan bir hərbi toqquşma idi, nə də təsadüfi bir "çətin döyüş günü". Bu faciə beynəlxalq hüququn, insanlıq prinsiplərinin, müharibə zamanlarında belə qorunmalı olan dəyərlərin amansız şəkildə pozulması demək idi".

Ekspert bildirib ki, Xocalıda baş verənlərin miqyasını təsdiqləyən təkcə Azərbaycan mənbələri deyil, beynəlxalq təşkilatların hesabatları da mövcuddur: "Human Rights Watch" və Memorial İnsan Haqları Mərkəzinin araşdırmaları Xocalıdan qaçan insanların məqsədli şəkildə hədəfə alınmasını, onların müharibə qanunlarının belə tanımadığı bir qəddarlıqla öldürülməsini təsdiqləyir. Həmin dövrdə erməni rəhbərliyində təmsil olunan şəxslərin müsahibələrində səsləndirdiyi etiraflar isə bu faciənin yalnız hərbi əməliyyat olmadığını, həm də psixoloji və simvolik mahiyyət daşıdığını göstərir. "Ermənilər mülki insanlara toxunmaz" kimi bir mifin dağıdılması, qarşı tərəfə "güc nümayişi" mesajı verilməsi - bütün bunlar faciənin arxasındakı qaranlıq niyyətləri daha da aydınlaşdırır".

Bahar Özsoy qeyd edib ki, Azərbaycan Milli Məclisi Xocalı hadisələrini 1994-cü ildə Xocalı soyqırımı kimi tanıyıb. Azərbaycan dövləti və diasporu uzun illərdir ki, həqiqəti dünyaya çatdırmaq üçün ardıcıl fəaliyyət göstərir. "Xocalıya ədalət!" kampaniyasının təsiri ilə Pakistan, Meksika, Kolumbiya kimi dövlətlərin parlamentləri, həmçinin ABŞ-nin bir sıra ştatları Xocalı soyqırımını tanıyan qərarlar qəbul edib. Bu, Azərbaycanın beynəlxalq tribunal olmadan da həqiqətin siyasi, tarixi və mənəvi səviyyədə tanınmasına nail olmaq üçün apardığı mübarizənin mühüm nəticəsidir.

Onun sözlərinə görə Xocalı həm də ədalət çağırışıdır: "Xocalı Azərbaycanın yalnız qan yaddaşı deyil; həm də bir millətin ədalət axtarışının təcəssümüdür. Bu gün Azərbaycan dövləti təkcə keçmişin ağrılarını xatırlatmır, həm də gələcək üçün mesaj verir: mülki əhalinin müdafiəsi beynəlxalq hüququn dəyişməz prinsipi olmalı, belə cinayətlər cəzasız qalmamalıdır.

Bu faciəni xatırlamaq - nifrət yaratmaq deyil, ədalətin bərpasını tələb etməkdir. Bu hadisəni dünyaya çatdırmaq - müharibə dəhşətlərinin bir daha təkrarlanmaması üçün xəbərdarlıqdır. Xocalını unutmaq mümkün deyil. Unutsaq həm də insanlığın üzərinə düşən məsuliyyəti unutmuş olarıq", - deyə Bahar Özsoy əlavə edib.




# Dünyada analoqu olmayan regional əməkdaşlıq

## Azərbaycan-Türkiyə-Gürcüstan strateji tərəfdaşlığı hər üç ölkəyə siyasi və iqtisadi dividendlər verməkdə davam edir

**Sabah Azərbaycan-Gürcüstan-Türkiyə biznes-forumu keçiriləcək. Budəfəki tədbir Gürcüstanın Kaxeti bölgəsində, Telavi şəhərinin məşhur Tsenandali kəndində baş tutacaq. Belə ki, tarixi 2012-ci ildən başlanan bu biznes-foruma indiyədək sözügedən üç ölkənin müxtəlif şəhər və rayonları evsahibliyi edib.**



Növbəti foruma da Azərbaycanın, Gürcüstanın və Türkiyənin müvafiq qurumlarının rəhbərləri, iş adamları, biznes dairələrinin nümayəndələri qatılacaq. Tədbirdə perspektiv layihələrin, regional əməkdaşlıq məsələlərinin müzakirəsi nəzərdə tutulub. Söhbət Azərbaycan-Gürcüstan-Türkiyə əlaqələrindən, o cümlədən iqtisadi əməkdaşlığından gedəndə, təbii ki, deməli söz, müzakirə edilməli məsələlər çox olur. Çünki bu üç ölkə arasında üçtərəfli əməkdaşlıq regional əməkdaşlığın ən yaxşı nümunəsidir. Bu cür əməkdaşlıq regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına da mühüm töhfə verir.

Azərbaycan-Gürcüstan-Türkiyə arasında münasibətlərdən bəhs edərkən öncə diqqət siyasi dialoqun yüksək səviyyədə olduğuna yönəlir. Yəni siyasi dialoq ölkələrin rəhbərləri səviyyəsində, eləcə də digər instansiyalarda dəstəklənir. Üçtərəfli iqtisadi əməkdaşlıq da siyasi dialoqun yüksək səviyyəsinə uyğun qurulub. Bu gün Xəzər və Qara dəniz hövzələrini əhatə edən geniş coğrafiyada Azərbaycan, Türkiyə və Gürcüstan iqtisadi üçbucağının formalaşdığını hamı aydın görür.

Sadə sözlərlə desək, Azərbaycan yaxşı qonşudur və yaxın coğrafiyada yerləşən dövlətlərlə də xoş münasibətləri var. (Yalnız Ermənistan öz günahları ucbatından uzun illər bu münasibətlərdən kənarda qalıb). Azərbaycan region dövlətlərinin hər biri ilə sıx iqtisadi partnyorluq münasibətləri qurub. İkitərəfli və çoxtərəfli əsasda inkişaf edən bu münasibətlər qarşılıqlı maraqlara əsaslanır və bütün tərəflərə fayda gətirir. Bu baxımdan Azərbaycan, Gürcüstan və Türkiyə arasında formalaşmış iqtisadi əməkdaşlıq əlaqələri təqdirəlayiqdir.

Üç qonşu ölkə arasında iqtisadi əlaqələrdən söhbət gedəndə ilk növbədə qlobal enerji layihələri yada düşür. Təkcə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərini yada salmaq kifayətdir. Başlanğıcını paytaxtımızın yaxınlığındakı Səngəçal terminalından götürən boru xətti Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə 1768 kilometr məsafə qət edərək mənzil başına çatır və bu üç ölkəni möhkəm polad kəmər kimi bir-birinə daha sıx bağlayır. 20 ildir tam sistem kimi fəaliyyət göstərən BTC bütün regiona xeyir-bərəkət gətirir.

Avropanın enerji xəritəsini dəyişdirən "Cənub qaz dəhlizi"nin üç seqmentinin ikisi bu regiondan keçir. Əvvəla xatırladaq ki, Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ildən Azərbaycan qazını qonşu ölkəyə çatdırır. Azərbaycanın və Gürcüstanın ərazisindən keçən bu kəmərə calanan əlavə xətlə qaz 2007-ci ildən Türkiyənin Ərzurum şəhərinədək nəql edilir. Azərbaycanı qaz ixrac edən ölkə kimi tanıtdıran da məhz bütövlükdə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri adlanan bu xətt olub.

"Cənub qaz dəhlizi"ni yaradan üç kəmərdən birincisi də genişləndirilmiş CQBK-dır. Daha sonra isə "Cənub qaz dəhlizi"nin ən böyük hissəsi - Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edən TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) gəlir. Azərbaycan qazını Avropaya çatdıran TAP (Trans-Adriatik Qaz Boru Kəməri) məhz TANAP-a bağlanır.

Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səylərlə reallaşdırdıqları digər regional və qlobal əhəmiyyətli layihə nəqliyyat sektoruna aiddir. Söhbət 2017-ci ildə inşası tamamlanan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolundan gedir. Azərbaycanın təşəbbüsü və böyük həcmlərdə investisiya yönəltməsi sayəsində ərsəyə gələn BTQ Avrasiyada ən qısa nəqliyyat bağlantısıdır. Təsadüfi deyil ki, bu marşrutun funksionallığı getdikcə artır.

Prezident İlham Əliyev hələ 2008-ci ilin iyul ayında BTQ-nin təməlqoyma mərasimində uzaqgörənliklə demişdir: "Üç ölkə arasında, üçtərəfli əməkdaşlıq bəlkə də, dünyada müşahidə olunmur, bunun analoqu yoxdur. Bu, həm siyasi, iqtisadi, mədəni sahələrdə olan əməkdaşlıqdır, eyni zamanda, real layihələrin həyata keçirilməsi baxımından çox önəmlidir. Təkcə bizim ölkələrimiz və xalqlarımız üçün deyil, Avropa üçün, dünya üçün önəmli olan irimiqyaslı layihələri Türkiyə, Gürcüstan, Azərbaycan birgə həyata keçiribdir. Vaxtilə əfsanə sayılan və bəzi dairələr tərəfindən qəbul edilməyən, yaxud şübhə ilə yanaşılan Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq reallıqdır. Biz buna nəyin hesabına nail olduq? Üç ölkənin iradəsi hesabına, xalqlarımızın bir yerdə olması və birgə əməkdaşlıq imkanlarımızın ortaya qoyulması hesabına. Bakı-Tbilisi-Ərzurum qaz kəməri də bəzi dairələr tərəfindən qəbul edilmirdi və şübhələr var idi. Ancaq həyat, reallıq və bizim yorulmadan çalışmağımız bu önəmli layihəni həyata keçirdi. Bakı-Tbilisi-Qars layihəsi də, demək olar ki, vaxtilə bəziləri tərəfindən ciddi qəbul olunmurdu və hesab edilirdi ki, bu layihə, sadəcə, kağız üzərində qalacaqdır. Bu layihə barədə söhbətlər gedirdi, danışıqlar aparılırdı. Amma hətta bizim ölkələrdə də bəziləri inanmırdı ki, biz bunu gerçəkliyə çevirəcəyik. Ancaq biz bunu etdik. Əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsinin həyata keçirilməsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin də rolu böyükdür. Biz artıq bu dəhlizi açdıq. Azərbaycan, Gürcüstan və Türkiyəni enerji layihələri ilə birləşdirdik. Təbii ki, neft layihəsi, qaz layihəsi ona gətirib çıxarıb ki, bu gün biz öz nəqliyyat infrastrukturumuzu da birləşdiririk. Biz bunu da bacardıq. Beləliklə, bölgədə gedən əməkdaşlıq daha da güclənəcək, Türkiyə, Gürcüstan, Azərbaycanın milli maraqları daha da böyük dərəcədə müdafiə olunacaqdır. Biz Avropa və Asiya üçün əvəzolunmaz nəqliyyat nöqtəsinə çevriləcəyik və əlbəttə, bunun çox böyük iqtisadi və sirr deyil ki, böyük siyasi dividendləri vardır".

Ölkəmiz Türkiyədə bir sıra önəmli investisiya layihələri həyata keçirir. SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ən böyük xarici sərmayələri qardaş Türkiyədədir. Bunlar əsasən STAR Neft Emalı Zavodu, Petkim Neft-Kimya Kompleksi və digərləridir. Həmin layihələrdən tək birinə - STAR-a diqqət yetirək. İzmir şəhərindəki (Əliağa) bu zavod 6,3 milyard dollar investisiya ilə qurulub və Türkiyənin ilk Xüsusi Sənaye Zonası elan edilmiş nəhəng layihədir. Zavod illik 10 milyon ton xam neft emalı gücünə malikdir və əsasən nafta, dizel, aviasiya yanacağı kimi məhsullar istehsal edərək Türkiyənin idxaldan asılılığını azaldır.

SOCAR-ın və Dövlət Neft Fondunun iştirakı ilə reallaşan layihə "Petkim" kompleksi ilə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir. Açılışı 2018-ci ilin oktyabr ayında baş tutan bu müəssisənin fəaliyyəti Azərbaycanın Türkiyədəki ən böyük birbaşa sərmayələrindən biri hesab olunur.

Azərbaycan iqtisadiyyatının inkişafında da türk şirkətlərinin rolu danılmazdır. Qardaş ölkənin şirkətləri neft-qazdan tutmuş kənd təsərrüfatına, tikintidən bank sektoruna qədər bir çox sahədə fəaliyyət göstərərək ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə töhfə verir. Bu şirkətlər təkcə investisiya gətirməklə kifayətlənmir, həm də yerli işçi qüvvəsinin məşğulluğuna dəstək verir, yeni texnologiyaların və idarəetmə təcrübələrinin ölkəyə gətirilməsinə kömək edir. Azərbaycanda fəaliyyət göstərən türk şirkətləri iki qardaş ölkə arasındakı iqtisadi əlaqələrin güclənməsinə xidmət edir və regional inkişafa təkan verir. Onların fəaliyyəti yerli bazarda rəqabəti artıraraq məhsul və xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olur. Bu şirkətlər həmçinin Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasına da müsbət təsir göstərir. Türk şirkətləri Azərbaycanın gələcək iqtisadi inkişaf strategiyasında önəmli tərəfdaşlar olaraq qalmaqdadır.

Azərbaycanın qonşu Gürcüstanın iqtisadiyyatına yatırdığı sərməyə milyardlarla dollar təşkil edir. Başqa sözlə, Azərbaycan bu ölkənin əsas xarici investorlarından birinə çevrilib. Sərmayələr bir sıra sahələri əhatə etsə də, enerji sektoru önəmli yeri tutur. Ümumiyyətlə isə Gürcüstanda 200-dən çox Azərbaycan şirkəti fəaliyyət göstərir ki, bu da strateji tərəfdaşlığın möhkəmlənməsinə xidmət edir.

Enerji sektoru istiqamətində investisiyalar neft-qaz layihələrinə və infrastrukturuna yönəldilib. Hazırda qonşu ölkədə SOCAR brendi ilə onlarca yanacaqdoldurma məntəqəsi (YDM) fəaliyyət göstərir.

Bunlar ikitərəfli və üçtərəfli formatda həyata keçirilən layihələrdən yalnız bir neçəsidir. Gələcəkdə onların sayının daha çox olacağına da şübhə yoxdur. Çünki əməkdaşlıq, həm də çoxşaxəli əməkdaşlıq dinamik inkişaf edir.

Sabah keçiriləcək Azərbaycan-Gürcüstan-Türkiyə biznes-forumu da məhz bu məqsədə yönəlir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarında 1100 daimi iş yeri açılıb

**"Azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarında uğurlu nəticələr əldə edilib. Ağdam Sənaye Parkı qısa müddətdə regional iqtisadi mərkəzə çevrilib. Burada 32 rezident və 5 qeyri-rezident qeydiyyatdan keçib, 145,8 milyon manat investisiya yatırılıb və 1000-ə yaxın daimi iş yeri yaradılıb. Rezidentlərin sayına görə park artıq ölkədə ikinci yerdədir".**

Bunu İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) İdarə Heyətinin sədri Seymur Adıgözəlov qurumun 2025-ci ildə fəaliyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş mətbuat konfransında çıxışı zamanı bildirib. Onun sözlərinə görə, burada işə qəbul zamanı yerli əhaliyə üstünlük verilir.

"Hazırda Ağdam Sənaye Parkında 13 müəssisə fəaliyyət göstərir. Parkda istehsal edilən məhsullar daxili bazarda satılmaqla yanaşı, həm də ixrac edilir. Sənaye parkında sahibkarlar tərəfindən 1,4 milyard manatlıq məhsul satışı həyata keçirilmişdir ki, bunun da 62,3 milyon manatlıq hissəsi ixrac olunub. Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında isə 19 rezident və 3 qeyri-rezident qeydiyyatdan keçib. Parkda 43,8 milyon manatdan çox investisiya yatırılıb və 100-ə yaxın iş yeri yaradılıb. Bununla yanaşı, Mingəçevir, Qaradağ, Pirallahı və Hacıqabul sənaye parklarında, eləcə də Neftçala, Sabirabad və Masallı sənaye məhəllələrində istehsalın genişləndirilməsi və yeni layihələrin icrası davam etdirilir. 2024-cü ilin sonunda yaradılmış Naxçıvan Sənaye Parkı və 2026-cı ildə təsis edilmiş Qərb Sənaye Parkında da hazırda zəruri infrastrukturun qurulması istiqamətində işlər aparılır.

Ümumilikdə, yaradılan sənaye infrastrukturu regionlarda sahibkarlığın inkişafına, sənaye potensialının balanslı şəkildə formalaşdırılmasına və iqtisadi aktivliyin genişlənməsinə xidmət edir", - deyə o vurğulayıb.

İZİA sədri əlavə edib ki, sənaye zonalarında 2025-ci ildə 25 sahibkarlıq subyekti rezident, 4 sahibkar isə qeyri-rezident statusu alıb. 14 yeni müəssisə fəaliyyətə başlayıb: "Bu müəssisələr tərəfindən 136 milyon manat investisiya yatırılıb və 1100 daimi iş yeri yaradılıb. Həmçinin sənaye parklarında tətbiq edilən vergi və gömrük güzəştləri nəticəsində rezidentlər ötən il 42 milyon manatdan artıq vəsaitə qənaət ediblər".

# Azərbaycan neftinin qiyməti 73 dolları ötüb



**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan neftinin qiyməti bahalaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,11 dollar və ya 1,5 faiz artaraq 73,31 dollar olub.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Azərbaycan iqtisadiyyatı 2026: yeni iqtisadi yol xəritəsi

## BVF bu il ölkəmizdə qeyri-neft sektoru hesabına ÜDM istehsalının 2 faizdən çox artacağını proqnozlaşdırıb

2026-cı ildə Azərbaycan iqtisadiyyatı qlobal iqtisadi transformasiya, enerji bazarlarındakı dəyişkənlik və regional geosiyasi proseslərin təsiri altında inkişafını davam etdirir. Son illər müşahidə olunan struktur dəyişiklikləri göstərir ki, ölkə iqtisadi modeli tədricən ənənəvi xammal ixracatına əsaslanan sistemdən daha şaxələndirilmiş və dayanıqlı formaya keçid mərhələsindədir. Ona görə də 2026-cı ili makroiqtisadi sabitliyin qorunması və islahatların dərinləşdirilməsi baxımından əhəmiyyətli mərhələ kimi qiymətləndirmək olar.

Müasir mərhələdə iqtisadi artımın xarakteri təkcə enerji gəlirlərinin dinamikası ilə deyil, eyni zamanda neftdənkənar sahənin genişlənməsi və daxili investisiya mühitinin keyfiyyəti ilə müəyyən olunur. Dövlətin prioritetləri sırasında fiskal intizamın qorunması (yəni büdcə xərclərinin və borcların nəzarətdə saxlanılması, gəlir və xərclər arasında tarazlığın təmin edilməsi), inflyasiya risklərinin idarə edilməsi və biznes mühitinin liberallaşdırılması xüsusi yer tutur. Paralel olaraq rəqəmsallaşma, "yaşıl enerji" keçidi və nəqliyyat-logistika imkanlarının artırılması iqtisadiyyatın uzunmüddətli rəqabət qabiliyyətini formalaşdıran əsas istiqamətlər kimi çıxış edir.

Bu baxımdan Beynəlxalq Valyuta Fondunun (BVF) 2026-cı il üzrə qiymətləndirməsi ölkə iqtisadiyyatının mövcud vəziyyətinə və perspektivlərinə dair mühüm nəticələri ortaya qoyur. Xanım Anna Bordonun rəhbərlik etdiyi BVF missiyası 4-17 fevral 2026-cı il tarixlərində Bakıya səfər edərək ölkənin maliyyə inkişafını, iqtisadi perspektivlərini və risklərini nəzərdən keçirib. Qurumun 2026-cı il üzrə son hesabatı göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı inkişaf yoluna qədəm qoyub və qlobal çağırışlara çevik cavab vermək qabiliyyətini nümayiş etdirir. Hesabatdakı rəqəmlər ondan xəbər verir ki, Azərbaycan artıq yalnız enerji sektoruna deyil, eyni zamanda texnologiya, sənaye və digər perspektivli sahələrə əsaslanan daha rəngarəng və dayanıqlı iqtisadi modelə keçib. BVF proqnozlarına görə, 2026-cı ildə neftdənkənar sahənin fəallığı nəticəsində ÜDM artımı 2,1 faizə çatacaq. Eyni zamanda həyata keçirilən "ağıllı" pul-kredit siyasəti inflyasiyanı ilin sonunda 5 faizə, gələn il isə 4 faizə qədər endirməyi mümkün edir. Bu, sadəcə, statistik rəqəm deyil, əhalinin gündəlik rifahını qorumaq, biznes mühitini daha proqnozlaşdırıla bilən və stabil etmək baxımından böyük əhəmiyyət daşıyır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) şöbə müdiri Nicat Hacızadə qeyd edir ki, BVF-nin 2026-cı il proqnozları Azərbaycanın maliyyə-bank sektorunda sabitlik və hədəflənmiş artım dövrünün başladığını təsdiqləyir. Xüsusilə kreditləşmədəki dinamika iqtisadiyyatın qeyri-neft-qaz sahələrinə maliyyə resurslarının əlçatanlığını təmin edir və sahibkarlığın inkişafını dəstəkləyir. 2026-cı ildən başlayaraq, özəl sektora kredit qoyuluşu hər il təxminən 9 faiz artacaq. Bu da o deməkdir ki, sahibkarlar və şirkətlər banklardan maliyyə götürməkdə çətinlik çəkməyəcək, kredit həcmi nizamlı və proqnozlaşdırıla bilən şəkildə genişlənəcək. Nəticədə biznesin inkişafı üçün əlverişli şərait yaradılır. Bu, təbii ki, sadəcə, rəqəm deyil, biznes mühitinə proqnozlaşdırıla bilən maliyyə fonu yaradır, daxili investisiyaların fəallaşmasına yol açır və ölkənin iqtisadi dinamikasını gücləndirir.

Mərkəzi Bankın 2026-cı il üçün müəyyən etdiyi pul-kredit siyasəti ölkənin iqtisadi "qan dövranı"nı sağlam saxlamağa yönəlib. Manatla pul bazasının 8,5 faiz, geniş pul kütləsinin isə 7,8 faiz artacağı proqnozu göstərir ki, bazarda həm biznes strukturları, həm də vətəndaşlar şəxsi əməliyyatlarını rahat apara biləcək qədər pul mövcud olacaq. Ölçülü və balanslaşdırılmış artım tempi inflyasiya təzyiqi yaratmadan bazara kifayət qədər pul axını təmin edir. Xüsusi diqqətçəkən məqam ondan ibarətdir ki, ümumi geniş pul kütləsi cəmi 6,2 faiz artacaq. Manatla olan pul kütləsi daha sürətlə artır (7,8 faiz), ümumi kütlənin daha yavaş artması isə iqtisadiyyatın xarici valyutadan, əsasən də dollardan uzaqlaşdığını göstərir. Bu, dedollarizasiya adlanan prosesdir. Yəni insanlar və biznes strukturları artıq vəsaitlərini dollar yox, manatla saxlamağa üstünlük verirlər.

Mərkəzi Bankın bu "qızıl orta" yanaşması sayəsində bazarda izafi pul yaranmır, dövriyyədəki manatın dəyəri qorunur. Nəticədə həm qiymət sabitliyi təmin olunur, həm də manatın alıcılıq qabiliyyəti güclənir. Beləliklə, manat iqtisadiyyatın etibarlı lövbəri kimi fəaliyyətini davam etdirir. Nicat Hacızadənin sözlərinə görə, milli valyutanın dollara qarşı sabitliyi fonunda manatın nominal effektiv məzənnəsində müşahidə olunan yüngül ucuzlaşma iqtisadiyyat üçün yeni imkanlar açır. Bu proses qlobal valyuta bazarlarındakı dəyişikliklər, xüsusilə dollar indeksinin hərəkətləri ilə sıx bağlıdır: "Dolların beynəlxalq bazarlardakı dəyişkənliyi fonunda manat sabit qalmaqla, ticarət tərəfdaşlarımızın valyutalarına qarşı daha rəqabətqabiliyyətli vəziyyətə gəlir. Nəticədə yerli istehsalçılar xarici bazarlarda mövqeyini gücləndirir və "Made in Azerbaijan" məhsulları xarici alıcılar üçün daha əlçatan olur".

İqtisadiyyatın rəqabət qabiliyyətini artıran digər vacib amil real effektiv məzənnənin (REM) müsbət tendensiyasıdır. Bu meyil ölkədə inflyasiyanın ticarət tərəfdaşları ilə müqayisədə daha aşağı və sabit olmasından irəli gəlir. BVF-nin proqnozlarına görə, 2026-cı ildə Azərbaycanda inflyasiya 5 faizə qədər enəcək. Bu, o deməkdir ki, ölkədə xərclər nəzarətdə saxlanılır. Anna Bordonun açıqlamaları isə gələcək illər üçün iqtisadi proqnozları daha dəqiq görməyə imkan verir: "2027-ci ilin sonuna qədər inflyasiyanın 4 faizə düşəcəyi proqnozlaşdırılır. Cari hesab balansının 2026-27-ci illərdə də müsbət qalacağı gözlənilir. Mərkəzi Bank və ARDNF-in birləşmiş ehtiyatlarının artması davam edəcək. Perspektiv üçün risklər ümumilikdə balanslaşdırılmış olaraq qalır".

Beləliklə, 2026-cı il üçün proqnozlar əsas verir deyək ki, Azərbaycan makroiqtisadi sabitliyi qorumaqla yanaşı, xarici investorların dəstəklədiyi yeni inkişaf modelinə uğurla inteqrasiya edir. Neftdənkənar sahəyə keçid yaxın illərdə daha dayanıqlı, inklüziv və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması üçün möhkəm zəmin yaradır.

***Züleyxa ƏLİYEVA. "Azərbaycan"***





# Mədəniyyət





**İncəsənət xadimləri**

# Rənglərin dili ilə danışan sənətkar

**XX əsr Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış sənətkarlardan biri də Xalq rəssamı Böyükağa Mirzəzadədir. O, milli rəngkarlıq məktəbinin formalaşmasında özünəməxsus yaradıcılıq dəst-xəti, zəngin bədii təfəkkürü və yüksək peşəkarlığı ilə seçilərək Azərbaycan incəsənət tarixində silinməz iz qoyub. Həyat yolu çətinliklərlə başlasa da, istedadı, zəhmətsevərliyi və sənətə sonsuz sevgisi onu böyük sənət zirvəsinə yüksəldib.**



Böyükağa Məşədi oğlu Mirzəzadə 1921-ci il fevralın 21-də Bakıda Abşeronun Fatmayı kəndində dünyaya gəlib. Ailənin ilki, doqquz uşağın böyüyü olub. Valideynləri təhsilsiz insanlar idi. Böyükağa kiçik yaşında ikən ailənin qayğılarına ortaq olmaq məcburiyyətində qalıb. İşdə zədələnən atası Məşədi görmə qabiliyyətini qismən itirib. Qırx bir yaşlı anasını isə vərəm xəstəliyi əllərindən alıb. Anasının vaxtsız vəfatından sonra ailənin düzəni pozulub. Evi yenidən nizama salmaqda çətinlik çəkən, məişət qayğılarının öhdəsindən gələ bilməyən Məşədi kişi yenidən evlənməyə məcbur olub.



Taleyin Böyükağagilə bu dəfə rəhmi gəlib. Analıqları insaflı qadın olub. Uşaqlara ögeylik göstərməyib, doğma ana tək qayğılarına qalıb.

Böyükağa gün-güzəran dərdindən uşaqlıq illərindən işləməyə məcbur olub. Hələ uşaq olsa da, ailəsini ağır dolanışıq qayğılarından qurtarmağa gücü yetməsə də, çalışıb. Qonşulara qəpik-quruşa su daşıyıb. Hərdən də bazarda alverçilərə kömək edib. Qazancı böyük olmasa da, çörək alıb evə sevinə-sevinə, qürurla gətirməyə yetib.

O vaxtlar Böyükağagil məşhur "Sovet" (indiki Nəriman Nərimanov) küçəsində yaşayırdılar. Bu ərazi həmin dövrdə qanunsuz əməllərin, cinayətlərin tez-tez törədildiyi yerlərdən biri kimi tanınırdı. Həmin küçənin sakinləri arasında ali təhsil alıb, mövqe, adsan sahibi olanların sayı çox az idi. Böyükağa Mirzəzadə belə bir məhəllədə böyümüşdür.

Onun üçün kiçik yaşlarından ən gözəl nümunə atası olub. Böyükağa Mirzəzadənin xatirələrində atası təhsilsiz olsa da, ağıllı, mehriban, mədəni insan kimi qalmışdı. Məşədi kişi halal zəhməti ilə dolandığına, dürüstlüyünə görə, hamının hörmətini qazanmışdı. Atası tez-tez Böyükağaya təsəlli verir, qəlbinin hökmü ilə seçdiyi, doğru bildiyi yolla yorulmadan, ruhdan düşmədən getməyi tövsiyə edir, onu gələcəkdə böyük uğurlar gözlədiyini deyirdi.

Atası ən çox ümid bəslədiyi böyük oğlunun həkim olmasını arzulayıb. Ancaq taleyi onu başqa bir təhsil ocağına - Rəssamlıq Məktəbinin ünvanına aparıb çıxarıb...

Bir gün qonşu uşaqlar onu da özləri ilə həmin məktəbə aparıblar. Dostları Muxtar Cəfərov və Mikayıl Abdullayev həmin dövrdə İncəsənət Məktəbində oxuyurdular. Onlar Rəssamlıq Məktəbinə daxil olması üçün Böyükağanı dilə tutublar. Çünki Böyükağa Mirzəzadənin yaxşı şəkil çəkmək qabiliyyəti olduğunu bilirmişlər. Sonralar Azərbaycanın böyük sənətkarı kimi tanınacaq Mikayıl Abdullayev və Muxtar Cəfərov onu sənədlərini Rəssamlıq Məktəbinə verməyə həvəsləndiriblər.

Albomunda qələmlə çəkdiyi natura rəsmlərinin arasında görkəmli rəssam Əzim Əzimzadənin də portretinin olması müəllimlərin xoşuna gəlib. O, Rəssamlıq Məktəbinə qəbul olunub.

Artıq Rəssamlıq Məktəbinin tələbəsi idi. Amma bir problemi vardı. Atasının bu xəbəri necə qarşılayacağı onu da, dostlarını da düşündürürdü. Amma Böyükağanın valideynləri məsələdən hali olanda çox seviniblər.

Böyükağa Rəssamlıq Məktəbində əla qiymətlərlə oxuyub. Bu məktəb onun üçün yalnız təhsil müəssisəsi olmayıb. O, vaxtının çox hissəsini Rəssamlıq Məktəbində keçirib, sonsuz maraqla, böyük həvəslə sənətin sirlərini öyrənib.

Böyükağa Mirzəzadə bu məktəbi bitirdikdən sonra seçdiyi sənəti daha dərindən öyrənmək üçün Moskva şəhərinə yollanıb. Çətinliklərə baxmayaraq, İ.V.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olub. İnstitutda da əla qiymətlərlə oxuyub və rəssamlıq bacarığı ilə müəllimlərinin diqqətini cəlb edən tələbələrdən biri olub.

Ancaq 1941-ci ildə alman faşist ordusunun SSRİ ərazisinə hücumu nəticəsində müharibə başlayıb. Böyükağa Mirzəzadə də təhsilini yarımçıq qoyaraq Bakıya qayıtmalı olub. Və erkən yaşlarından yaradıcılığa başlayıb.

Rəssam olduğu üçün onu ön cəbhəyə göndərməyiblər. Gənc rəssam arxa cəbhədə yorulmaq bilmədən çalışıb. O, təbliğat plakatları, klub və zabitlər evlərinin interyerlərini işləyib, döyüşdə fərqlənmiş əsgərlərin rəsmlərini çəkib.

İstedadı onu rəssamlar arasında tez tanıdıb. Hələ gənclik illərində rəngkarlıq, qrafika rəssamlığı və digər janrlarda, müxtəlif mövzularda yaratdığı əsərləri yalnız müasirləri tərəfindən bəyənilərək təqdir edilməyib. Həm də həmin əsərlər dəyərli sənət nümunələri kimi rəssamlıq tariximizə daxil olub.

Böyükağa Mirzəzadə 1940-cı ildən yerli və beynəlxalq sərgilərin fəal iştirakçılarından olub. Müxtəlif illərdə xaricdə və ölkəmizdə bir çox fərdi sərgisi təşkil edilib. Rəssam Çexoslovakiya, Fransa, İtaliya və digər xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərinə gedib.

Onun əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində və Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində, eləcə də başqa muzeylərin ekspozisiyalarında təqdim edilib. Böyükağa Mirzəzadənin əsərləri ölkəmizlə yanaşı, bir çox xarici ölkənin muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır.

Böyükağa Mirzəzadənin yaradıcılığı zəngin və çoxşaxəli idi. Onun "Dirijor Niyazinin portreti", "Şıxəli Qurbanovun portreti", "Aşıq Ələsgərin portreti", "Şəmsi Bədəlbəylinin portreti", "Həyat yoldaşının portreti", "Qırmızı çətirlə natürmort", "Bakı mənzərəsi", "Yeddi gəmi adası", "Çimərlikdə", "Göyçə gölü", "Günorta", "Lənkəran mənzərəsi", "Qala", "Xəzər neftçiləri", "Bizim kəndin insanları", "Çəhrayı geyimli qız", "Sarı gəlin" və başqa əsərləri Azərbaycan rəssamlığının ən dəyərli nümunələrindən hesab edilir.



O, teatr-dekorasiya sənəti sahəsində də uğurla çalışıb. 1960-cı ildə Şıxəli Qurbanovun "Milyonçunun dilənçi oğlu" pyesi əsasında hazırlanmış eyniadlı tamaşası ilə debüt edən rəssam bu quruluşa görə Üzeyir Hacıbəyli adına Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. Böyükağa Mirzəzadənin "Mənim günahım", "Qayınana", "Bayadera" və başqa əsərlərin tamaşalarında yaratdığı dekorasiyalar da mütəxəssislər tərəfindən yüksək dəyərləndirilib.

O, həm də pedaqoji fəaliyyətlə məşğul olub. Böyükağa Mirzəzadə ömrünün son günlərinədək müəllim kimi də çalışıb. Mədəniyyət və İncəsənət Universitetində kafedra müdiri, Rəssamlıq Akademiyasının professoru, yaradıcılıq emalatxanasının rəhbəri vəzifələrində çalışıb. O, bilik və bacarığını, zəngin təcrübəsini gənc rəssamların hazırlanmasına sərf edib.

Rəssamlıq sahəsində gördüyü işlər yüksək dəyərləndirilib. Böyükağa Mirzəzadə 1959-cu ildə "Şərəf nişanı" ordeninə, 1960-cı ildə Əməkdar incəsənət xadimi, 1966-cı ildə Üzeyir Hacıbəyli adına Dövlət mükafatına və 1967-ci ildə isə Xalq rəssamı fəxri adına, 1981-ci ildə "Qırmızı əmək bayrağı" ordeninə, 1998-ci ildə "Şöhrət" ordeninə layiq görülüb. 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub.

XX əsrin yetirdiyi çox istedadlı rəssamlardan biri, Azərbaycan milli rəngkarlıq məktəbinə Avropa ruhunu gətirərək onun daha da zənginləşməsinə nail olan Böyükağa Mirzəzadə 2007-ci il noyabrın 3-də səksən altı yaşında dünyasını dəyişib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Ustadlarımız**



**Əsrlərə şahidlik edən, zaman-zaman insanlara mənəvi zövq verən muğamlarımızın kamil bilicisi və mahir ifaçısı, görkəmli tarzən, Xalq artisti Bəhram Mansurovun anadan olmasından 115 il keçir. Dinlədikcə dinləmək istədiyimiz Azərbaycan muğamlarının həm qorunub saxlanmasında, həm də geniş təbliğ olunmasında böyük əmək sərf etmiş Bəhram Mansurov 1911-ci il fevralın 12-də Bakıda dünyaya göz açmış, əsrlərdən bəri qədimliyini qoruyub saxlayan İçərişəhərdə boya-başa çatmışdı.**

# Mansurovlar tarının sehri

İlk təhsilini mədrəsədə, sonra isə rus-tatar məktəbində alan Bəhram Mansurovun atası Məşədi Süleyman dövrünün görkəmli tarzənlərindən idi. O, musiqi, söz, sənət bilicisi olmaqla yanaşı, həm də böyük iş adamı, dövrünün savadlı şəxsiyyətlərindən biri kimi tanınırdı. Onların evi sözün həqiqi mənasında muğam ocağı idi. Burada musiqişünas Baba Məşədi Məlik bəyin təşkilatçılığı ilə muğam gecələri keçirilir, Azərbaycanın hər yerindən xanəndələr, musiqisevərlər toplaşırdılar.

Nəvəsi bəstəkar Eldar Mansurovun tərtib etdiyi "Xatirələr"də babası Məşədi Süleymanın nəsli haqqında verdiyi maraqlı məlumatlar da yer alıb: "Şəhərin bütün şair və musiqiçiləri, ziyalı və mülkədarları bizim evin qonağı olardı. Gələn qonaqlar atamı, sadəcə, Məşədi Məlik deyə çağırardılar. Mən bu insanlardan çox şey öyrənmişəm. Sənətə, sözə marağım elə uşaqlıqdan başlayıb. Atam Məşədi Məlik hərtərəfli musiqi bilicisi idi. Tarda, kamançada, cürə sazında, qavalda, yeddidilli qarmonda çalmağı bacarırdı".

Bəhram Mansurovun da qismətinə nəsildəki musiqi ənənələrini davam etdirmək düşdü. O, bu ənənəni uğurla davam etdirdi. Evdəki, ailədəki musiqi mihiti Bəhramın görkəmli tarzən kimi formalaşmasında əvəzsiz rol oynadı. Mənbələrdə deyildiyinə görə, onların evində çoxlu tar olub. Atası evdən bir yerə çıxanda balaca Bəhram onlardan birini götürüb çalar, özü də bilmədən kökdən salıb divardan asarmış. Məşədi Süleyman evə qayıdanda Bəhramın tara toxunduğunu bilər və "mənim tarıma kim toxunub? "- deyə soruşarmış. Bəhram da günahını boynuna alaraq "hardan bildin ki, mən toxunmuşam" deyə soruşar, atası "tarın kökündən" deyə cavab verərmiş. Dövrünün mahir tarzəni olmuş atası Məşədi Süleyman oğlunun tara olan sevgisini, həvəsini görəndə deyib: "Sən tarı çalmağı tez öyrənəcəksən. Muğam sənin qanındadı". Çox keçmədi ki, sənətkarın müşahidələri özünü doğrultdu.

Təcrübəli sənətkar Bəhram Mansurov Bakıda Pedaqoji Texnikumda oxuduğu vaxtlardan tarzən kimi peşəkarlığına görə həmişə alqışlanarmış. O, hələ 12-13 yaşı olarkən ifaçılıq baxımından mürəkkəb hesab olunan "Rast", "Çahargah", "Bayatı-Şiraz", "Qatar" kimi muğamları solo ifa edirmiş. Bəhram Mansurovun 19 yaşı olanda Müslüm Maqomayev onu Xalq Çalğı Alətləri Orkestrinə, daha sonra Opera və Balet Teatrına solist dəvət edib. 1929-cu ildən Azərbaycan Dövlət Şərq Orkestrinin, sonralar tarzən kimi Azərbaycan Dövlət Filarmoniyasının solisti olan B.Mansurov Opera və Balet Teatrında Hüseynqulu Sarabski, Yavər Kələntərli, Hüseynağa Hacıbababəyov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva kimi korifeylərlə işləyib. Tanınmış və bütün zamanlarda sevilən Rübabə Muradova, Sara Qədimova, Əbülfət Əliyev, Gülxar Həsənova, Zeynəb Xanlarova, Mais Salmanov, Bakir Haşımov, Qulu Əsgərov, Arif Babayev, Nəzakət Məmmədova, Baba Mirzəyev və başqa müğənniləri müşayiət edib, bacarığı, peşəkarlığı ilə bu və ya digər sənətkarların rəğbətini qazanıb.

Bəhram Mansurov 30 yaşı olanda konsert qrupunun tərkibində Moskvaya estrada artistlərinin festivalına yola düşüb. Amma qatar Rostova çatanda Almaniyanın SSRİ üzərinə hücuma keçdiyi məlum olub. Müharibənin başlaması haqqında xəbər ildırım sürəti ilə bütün ölkəyə yayılıb. Yaranmış fövqəladə vəziyyətlə əlaqədar tədbirlər ləğv edilib. Onlar geriyə qayıtmalı olublar.

Görkəmli mədəniyyət işçisi olduğuna görə onu müharibəyə aparmayıblar, xüsusi təşviqat qruplarının sərəncamına göndəriblər. Həmin gündən sinəsinə basdığı tar süngüyə çevrilib. Bəhram Mansurov təşviqat qrupunun tərkibində dəfələrlə cəbhə xəttinə, hospitallara gedib, Sara Qədimova, Hüseyn Rəfi, Şirzad Hüseynov və başqaları ilə birlikdə döyüşçülər qarşısında çıxış edib. Bəhram Mansurov 416-cı Azərbaycan diviziyasının döyüşçüləri qarşısında da dəfələrlə məharətini göstərib.

Peşəkarlığına, sənətkarlığına böyük dəyər verərək onu müəllim kimi Bakı Musiqi Texnikumuna dəvət ediblər. Bəhram Mansurov ömrünün sonuna qədər bu təhsil ocağında pedaqoji fəaliyyət göstərib. Görkəmli tarzən muğamın tədrisi prosesində atası Məşədi Süleymanın və əmisi Mirzə Mansurun üslubuna istinad edərək özünün orijinal sistemini yaradıb.

İkinci Dünya müharibəsindən sonra Bəhram Mansurov müxtəlif ölkələrə qastrol səfərlərinə gedib. UNESCO-da Azərbaycan muğamlarını ilk dəfə təmsil edən musiqiçi məhz o olub. 1967-ci ildə Bakıya gələn bu nüfuzlu beynəlxalq təşkilatın rəsmi nümayəndələri Bəhram Mansurovun ifasını bəyənərək onunla əməkdaşlığa başlayıblar. Bu beynəlxalq təşkilatın xətti ilə məşhur tarzənin ifasında 2 val və CD diski yazılaraq dünyanın hər tərəfinə yayılıb. Azərbaycan musiqisinin tədrisindəki, inkişafındakı və təbliğindəki xidmətlərinə görə, Bəhram Mansurov 1978-ci ildə Xalq artisti fəxri adına layiq görülüb.

İstedadlı tarzən görkəmli bəstəkar Fikrət Əmirovla yaxın dost olub. Onun adının UNESCO-nun siyahısına düşmə xəbərini də Bəhram Mansurova ilk dəfə Firkət Əmirov verib. Bu gün də bəstələri böyük sevgi ilə dinlənilən Fikrət Əmirov "Şur" və "Kürd-ovşarı" simfonik muğamlarını yazarkən tanınmış musiqiçilər Seyid Şuşinski və Qurban Pirimovla məsləhətləşərdi. Sonuncu simfonik muğamı olan "Gülüstan-Bayatı-Şiraz"ını isə Bəhram Mansurovun ifası əsasında bəstələyib.

Bəhram Mansurov bənzərsiz ifası ilə Azərbaycan musiqi tarixində pozulmayan izlər qoyub. Onun ifasında "Çahargah" və "Rast" muğamları ilk dəfə nota alınıb. "Bayatı-Şiraz", "Humayun", "Şur", "Bayatı-kürd" və "Çahargah" muğamları isə UNESCO-nun xətti ilə vallara və CD-lərə yazılaraq dünyanın hər yerində təbliğ olunub. Görkəmli sənətkar 1978-ci və 1983-cü illərdə Səmərqənddə keçirilən beynəlxalq muğam simpoziumlarında Azərbaycanı uğurla təmsil edib. Tarzən nə az, nə çox - düz 54 il Opera və Balet Teatrında işləyib. Bu müddət ərzində muğam operalarında görkəmli xanəndələri müşayiət edib. Onun ifa etdiyi muğam və musiqi nümunələri oğlu, tanınmış bəstəkar Eldar Mansurov tərəfindən nota köçürülüb. 1971-ci ildə sevilən sənətkara həsr olunmuş "Çalır Bəhram Mansurov" sənədli televiziya filmi ekranlara çıxıb.

Dünyaşöhrətli bəstəkar Fikrət Əmirov görkəmli tarzən Bəhram Mansurov sənətindən söz açarkən demişdir: "O, muğamların ən gözəl ustadlarından biri sayılır. Azərbaycanda demək olar ki, heç kəs özünü Azərbaycan muğamları ilə bu qədər üzvi vəhdətdə bilmir. O, zəngin musiqi folklorumuzu olduqca dərindən, ən kiçik detallarına qədər bilir. Haqlı olaraq onu tarda müasir tipli üslubda çalmağın atası sayılan görkəmli Sadıqcanın ləyaqətli ardıcılı hesab edirlər".

Ölümündən iki həftə əvvəl həkimlər ona təcili əməliyyat olunmasının vacibliyini deyiblər. Evindən sonuncu dəfə çıxanda bir anlıq geri qayıdaraq yarım saata qədər tar çalıb. Sonra böyük sevgi ilə sinəsinə sıxdığı tarı divardan asaraq deyib: "İllərin dostu, bir də səninlə iki həftədən sonra görüşəcəyik".

Amma nə edəsən ki, Bəhram Mansurov əməliyyatdan sağ çıxsa da, sonradan vəziyyəti pisləşib. Həkimlər nə qədər cəhd göstərsələr də, onun həyatını xilas edə bilməyiblər. Böyük sənətkar 14 may 1985-ci ildə dünyasını dəyişib.

Bəhram Mansurovun oğulları da nəslin musiqi ənənələrini uğurla davam etdirirlər. Böyük oğlu Eldar bəstəkar, ortancıl oğlu Aydın xor drijoru, kiçik oğlu Elxan isə atasının yolu ilə gedir.

Bəstəkar Eldar Mansurov 2004-cü ildə yaratdığı "Bəhramnamə" əsərini atasının xatirəsinə həsr edir. Bu əsər muğamla müasir musiqi növlərinin sintezindən ibarət musiqi albomudur. Bəstəkar əsərdə atasının vaxtilə böyük ustalıqla ifa etdiyi Azərbaycan muğamlarının lent yazılarından da istifadə edib. Dinləyicilərin böyük maraqla qarşıladıqları bu əsərdə muğam hissələri Bəhram Mansurova, digər musiqi parçaları isə Eldar Mansurova aiddir.

Sənət heç vaxt unudulmur, sənətkar heç vaxt ölmür. İfası ilə böyük şöhrət qazanmış, yaddaşlarda dərin iz qoymuş Bəhram Mansurovun adı musiqi tariximizdə əbədi olaraq qalacaq. Onun zəngin irsi Azərbaycan muğam məktəbinin inkişafına bundan sonra da böyük təkan verəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "Vicdanın susduğu gecə" adlı anım tədbiri keçirilib

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunan "Vicdanın susduğu gecə" adlı anım tədbiri keçirilib.

Bu barədə AZƏRTAC-a muzeydən məlumat verilib.

Bildirilib ki, tədbir Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi və Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbirdə əvvəlcə vətən uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.



Muzeyin əməkdaşı Türkan Əliyeva və Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin kursantı Atilla Kazımlı Qarabağ hadisələri, Xocalı soyqırımı və 44 günlük Vətən müharibəsi mövzusunda geniş məruzələrlə çıxış ediblər.

Xocalı soyqırımının canlı şahidi, erməni əsirliyində ağır işgəncələrə məruz qalmış Dürdanə Ağayevaya ithaf olunan bu tədbirdə onun qardaşı, Azərbaycan Respublikası Şəhid ailələrinə qayğı cəmiyyətinin Xocalı rayon şöbəsinin sədri, qazi Eldəniz Ağayev həm ailəsi ilə bağlı xatirələrini bölüşüb, həm də o dəhşətli gecədə baş verən faciənin acı və ağır həqiqətlərindən söz açıblar.

Daha sonra "Əsirlikdə 8 gün" adlı bədii-sənədli film nümayiş olunub.

## İdman

# Dövlət qurumlarının əməkdaşları arasında üzgüçülük yarışı keçirilib



**Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Üzgüçülük Federasiyasının təşkilatçılığı ilə dövlət qurumlarının əməkdaşları arasında üzgüçülük yarışı keçirilib.**

Turnirdə 5 dövlət qurumunu təmsil edən 20 kişi və 17 qadın olmaqla, ümumilikdə 37 nəfər bacarığını nümayiş etdirib.

Qadınlar arasında 50 metr məsafəyə üzgüçülük yarışında SOCAR-ın əməkdaşı Liliya Xametova birinci yerə layiq görülüb. Fövqəladə Hallar Nazirliyinin (FHN) nümayəndələri Leyla Əliyeva ikinci, Afaq Sultanova isə üçüncü yeri tutublar.

Kişilər arasında keçirilən 50 metr məsafəyə üzgüçülük yarışının qalibləri Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşları olublar. Emil İbrahimov birinci, Toğrul Sadıqov ikinci, Məhəmməd Həbibzadə isə üçüncü yeri tutublar. Estafet yarışlarında qadınlar arasında qalib FHN komandası olub. İkinci yeri SOCAR, üçüncü yeri isə DİN tutub. Kişilər arasında estafetdə isə birinci yerdə DİN, ikinci yerdə FHN, üçüncü yerdə SOCAR əməkdaşları qərarlaşıblar.




Qarışıq estafet yarışında birinci yeri FHN, ikinci yeri SOCAR, üçüncü yeri isə DİN qazanıb.

# "Azərenerji"də rəqəmsal idarəetmə məsələləri müzakirə edilib





**"Azərenerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Mərkəzində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi rəhbərliyinin iştirakı ilə görüş keçirilib.**

Qeyd edək ki, "Azərenerji" ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nümayəndələri arasında keçirilən bu görüş Prezident İlham Əliyevin fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na dair müşavirədə verdiyi tapşırıqlardan sonra keçirilən sayca ikinci görüşdür və görüşdə dövlət başçısının 10 dekabr 2025-ci il tarixli 841 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya" çərçivəsində enerji sistemində həyata keçirilən tədbirlər nəzərdən keçirilib.

"Azərenerji" tərəfindən edilən təqdimat zamanı Elektroenergetika Obyektləri üzrə Operativ Məlumat Sistemi (EOOMS), SCADA və WAMS/WACS sistemlərinin tətbiqi, monitorinq və operativ idarəetmə imkanları barədə məlumat verilib. Həmçinin monitorinq məqsədilə xüsusi təchiz olunmuş nəqliyyat vasitələri və enerji obyektlərində rəqəmsal nəzarət mexanizmləri diqqətə çatdırılıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nümayəndələri təhlükəsizlik və kibertəhlükəsizlik sistemləri, o cümlədən Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyəti barədə məlumat verərək, birgə əməkdaşlıq və ixtisasartırma imkanlarını təqdim ediblər.

Müzakirələr zamanı enerji ilə əlaqəli data mərkəzlərinin enerji təchizatı, strateji obyektlərin yaxınlığında data infrastrukturunun qurulması, fiber-optik şəbəkənin inkişafı və "Azərenerji" ASC-nin myGov.az platforması ilə inteqrasiyası məsələləri də əhatə olunub. Qeyd edilib ki, inteqrasiya mərhələli şəkildə həyata keçiriləcək və istifadəçi sayının artırılması nəzərdə tutulur.

Görüş çərçivəsində tərəflər rəqəmsallaşma, kibertəhlükəsizlik və data mərkəzlərinin inkişafı üzrə birgə fəaliyyət istiqamətlərini razılaşdırıblar.

## OXUCULARIN NƏZƏRİNƏ

Hörmətli oxucular!

"Azərbaycan Nəşriyyatı"nda aparılacaq əsaslı təmir işləri ilə bağlı "Azərbaycan" qəzetinin redaksiyası aşağıda göstərilən ünvana köçmüşdür:

**Mətbuat prospekti, 23L**

**"Azərbaycan Nəşriyyatı" MMC, 4-cü mərtəbə**



# Azərbaycan Almatıda dağ turizminin inkişafına həsr edilən forumda təmsil olunur

Almatıda Qazaxıstan, Rusiya, Özbəkistan və Azərbaycan nümayəndələrinin iştirakı ilə dağ turizminin inkişafına həsr olunan Avrasiya Forumu keçirilir.

AZƏRTAC xəbər verir ki, tədbirlər Oi-Qaragai və Çimbulak dağ kurortlarının meydançalarında keçirilir. Forumun beynəlxalq formatı peşəkar dialoqun inkişafına, təcrübə mübadiləsinə və aktual sahə məsələlərinin müzakirəsinə yönəlib.

İştirakçılar Almatı dağ klasterinin formalaşdırılması və inkişafı, infrastruktur həlləri, xidmət keyfiyyətinin yüksəldilməsi və kurortlarda təhlükəsizliyin təmin edilməsi məsələlərini müzakirə edirlər.

# Parataekvondonun inkişafı ilə bağlı yeni əməkdaşlıq memorandumu imzalanıb



Milli Paralimpiya Komitəsi (MPK) və Azərbaycan Taekvondo Federasiyası (ATF) parataekvondonun inkişafı istiqamətində əməkdaşlığı genişləndirir.

MPK-dan AZƏRTAC-a bildirilib ki, komitə ilə federasiya arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandumla bağlı hər iki qurumun rəsmiləri arasında görüş keçirilib.

Görüş zamanı parataekvondo üzrə əldə olunan uğurların davam etdirilməsi və bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə edilib. Memoranduma əsasən, tərəflər ölkədə parataekvondonun inkişafı, əlilliyi olan şəxslərin bu idman növünə cəlb olunması, kütləviliyin artırılması və birgə layihələrin həyata keçirilməsi istiqamətində qarşılıqlı fəaliyyət göstərəcəklər.

Qeyd edək ki, memorandumu komitənin baş katibi Toğrul Rəhimov və federasiyanın baş katibi Aygül Abdullayeva imzalayıblar.

# Turnir Anatoli Banişevskinin 80 illik yubileyinə həsr edilib



AFFA və Bakı Kəndlər Futbol Federasiyasının birgə təşkilatçılığı ilə əfsanəvi futbolçu Anatoli Banişevskinin anadan olmasının 80 illik yubileyi münasibətilə xatirə turniri keçirilib.

AFFA-dan AZƏRTAC-a bildirilib ki, 14 yaşadək uşaqlar arasında təşkil olunan turnirdə Bakının kənd və qəsəbələrini təmsil edən 6 komanda mübarizə aparıb. Dalğa Məşq Mərkəzində baş tutan final qarşılaşmasında "Atəşgah"ı (Suraxanı) 4:0 hesabı ilə məğlub edən "Binə" komandası turnirin qalibi olub. "Atəşgah" isə ikinci yeri tutub.

Final matçından sonra mükafatlandırma mərasimi keçirilib. Qalib və mükafatçılar kubok, medal və diplomlarla təltif olunublar. Kubok qalib komandaya AFFA-nın Kütləvi Futbol Departamentinin rəhbəri, veteran futbolçu Fərrux İsmayılov və Bakı Kəndlər Futbol Federasiyasının prezidenti Vaqif Davudov tərəfindən təqdim edilib.

Qeyd edək ki, turnirin keçirilməsində əsas məqsəd Azərbaycan futbolunun parlaq simalarından olmuş mərhum Anatoli Banişevskinin xatirəsini yad etmək, eləcə də uşaqlar arasında futbolun kütləviliyini artırmaq və istedadlı futbolçuların üzə çıxarılmasına dəstək olmaqdır.




# Bakıdakı Dünya Kubokunda Azərbaycanı 6 idman gimnastı təmsil edəcək

Bakıda keçiriləcək idman gimnastikası üzrə Dünya Kubokunda iştirak edəcək Azərbaycan gimnastları bəlli olublar.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, turnirdə ölkəmizi Rəsul Əhmədzadə, Aydın Əlizadə, Nikita Simonov, Dəniz Əliyeva, Nazənin Teymurova və Xədicə Abbaszadə təmsil edəcəklər.

35 ölkədən idmançıların mübarizə aparacağı yarış martın 5-8-də təşkil olunacaq.

# Gündüz yağıntılar tədricən kəsiləcək

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 25-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Günün birinci yarısında bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 3-5, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gündüz yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-7, gündüz 10-15, dağlarda gecə 0-4, gündüz 5-10 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 12-17 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-4, gündüz 8-13 dərəcə isti müşahidə ediləcək.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda əsasən yağmursuz hava proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5, gündüz 7-12 dərəcə isti olacağı bildirilir.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda əsasən yağmursuz hava proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7, gündüz 11-16 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı bildirilir. Səhər qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 1-6 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacağı gözlənilir.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-7, gündüz 10-15 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda əsasən yağmursuz hava gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-7, gündüz 9-14, dağlarda gecə 1-3, gündüz 5-8 dərəcə isti olacaq.

Azərbaycan Universiteti tərəfindən Biznes və İqtisadiyyat fakültəsinin İqtisadiyyat ixtisasının tələbəsi Lamiyə İnqilab qızı Şirəliyevanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin müdiri Hafiz Babayevə həyat yoldaşı

**BULUL BABAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının və İşlər İdarəsinin rəhbərliyi və kollektivi İşlər İdarəsi Maliyyə şöbəsinin müdiri Reyhan Cəfərovaya həyat yoldaşı

**ARİF CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikası ədliyyə nazirinin müşaviri general-mayor Tağı Eynullayevə anası

**MURQUNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Elburus və Oruc Əhmədovlar, Mətləb Əliyev, Rasim Hüseynov və Şamo Mustafayev dostları Məhəmməd Quliyevə əzizi

**DAŞQIN VAQİF OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Təhməzov, Cavanşir Mustafayev, Məhəmməd Rəfiyev, Əli, Sirac, Yusif, Mobil və Rafiq Hüseynovlar, Əlövsət Əliyev, Vidadi Hümbətov və Ramiz Məmmədov prokurorluq orqanları veteranı Məhəmməd Quliyevə əzizi

**DAŞQIN VAQİF OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3311
Sifariş 272

Qiyməti 60 qəpik